# YUNUS OĞUZUN 65 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNAN TƏBRİKLƏR

***Yunus Oğuz - çoxşaxəli istedad sahibi, dərin intellektualdır***



Yunus Oğuz ötən əsrin 90-cı illərindən etibarən Azərbaycan ictimai fikrində tanınmağa başlayan görkəmli ziyalılardan biridir. İxtisasca filosof, fəaliyyətinə görə jurnalist, yaradıcılığına baxdıqda isə tarixi romanlar müəllifi olan Yunus Oğuz özünün çoxşaxəli istedada sahib olduğunu təsdiq edən bir şəxsiyyətdir. Mənim Yunus bəylə tanışlığım da həmin dövrlərə - 90-cı illərə təsadüf edir.

O, insan kimi çox maraqlı, ünsiyyətcil və dərin intellektual bir şəxsiyyət təsiri bağışlayır. Onunla istənilən mövzu ətrafında sərbəst və rahat söhbət aparmaq mümkündür. Yunus bəy insanı dinləməyi bacarır, söhbətə məzmun qatır və öz intellektual səviyyəsini də daim nümayiş etdirir.

Bu gün Azərbaycan cəmiyyətində elə bir şəxs tapmaq çətindir ki, Yunus Oğuzu tanımasın. O, Azərbaycan mətbuatına da özünün mühüm töhfələrini verib. Yaratdığı "Olaylar" qəzeti geniş və zəngin mövzuları ilə daim diqqət çəkir. Günün əsas məsələlərinə dair həm redaktor, həm jurnalistlər, həm də müxtəlif ziyalılar bu qəzet vasitəsilə öz mövqelərini ifadə edə bilirlər. Kəskin rəqabət şəraitində fəaliyyət göstərməsinə baxmayaraq, bu gün də "Olaylar" qəzeti və informasiya agentliyi Azərbaycan mətbuatında tanınan və öz sözünü deyən media qurumlarındandır. Bütün bu uğurların arxasında Yunus bəyin əvəzsiz xidmətləri dayanır.

Yunus Oğuzun tarixi mövzularda yazdığı əsərlər bu gün də yüksək qiymətləndirilir. Hesab edirəm ki, gələcək nəsillər tariximizin bəzi səhifələri haqqında məhz Yunus bəyin əsərlərindən daha dolğun təsəvvür əldə edə biləcəklər.

Onun ictimai-siyasi fəaliyyəti də diqqətəlayiqdir. Yunus Oğuz üçün hər zaman Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, müstəqilliyimizin qorunması, ərazi bütövlüyümüzün təmin olunması və ölkəmizin beynəlxalq aləmdə nüfuz qazanması əsas prioritetlər olub. Bu prinsiplər onun siyasi fəaliyyətinin də ana xəttini təşkil edir.

Bu dəyərli ziyalını doğum günü və yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı və gələcək fəaliyyətində böyük uğurlar arzulayıram. Əminəm ki, bundan sonra da Yunus Oğuzun həm siyasi, həm ədəbi, həm də jurnalistik fəaliyyətində maraqlı nəticələrə şahid olacağıq.

**Aydın Mirzəzadə,**
**Milli Məclisin deputatı**

***https://olaylar.az/news/sosial/599781***

***Millət vəkili Vüqar İskəndərov Yunus Oğuzu 65 yaş münasibətilə təbrik edib***



Yunus bəy bizim üçün təkcə dost deyil, həm də uzun illər ərzində tanıdığımız, hörmət etdiyimiz, yüksək peşəkarlıq və vətənpərvərlik nümunəsi olan bir şəxsiyyətdir. Onun xidmətlərini, fəaliyyəti və zəhmətini hər kəs yaxşı bilir və dəyərləndirir. O, yalnız siyasi və ictimai sahədə deyil, eyni zamanda söz və fikir sahəsində də böyük təcrübəyə malikdir. Onun fəaliyyəti hər zaman milli maraqlara, milli dəyərlərə sadiq bir mövqe ilə seçilib.

Digər tərəfdən, o, dərin araşdırmaları, tarixçi kimi dəqiq biliyi və geniş dünyagörüşü ilə seçilir. Həmçinin o, siyasi fəaliyyətini də böyük məsuliyyət və enerji ilə davam etdirir.

Yunus bəy həm ictimai-siyasi xadim, həm də publisist, jurnalist və tarixçi kimi yüksək səviyyəli peşəkar olmaqla yanaşı, kamil insandır. Onun uzun illər ərzində ölkəmizin ictimai-siyasi həyatına verdiyi töhfələr qiymətsizdir. Yazılarında, çıxışlarında, fəaliyyətində milli dəyərlərə və prinsiplərə bağlılıq hər zaman aydın şəkildə görünür.

65 yaşı münasibətlə Yunus bəyi ürəkdən təbrik edir, ona möhkəm sağlamlıq, zəkasının həmişə üstündə olmasını və gələcəkdə də böyük yaradıcılıq uğurları arzulayırıq. Hər zaman enerjili və məhsuldar qalması, jurnalistika, siyasi fəaliyyət və digər sahələrdə ölkəmizə, xalqımıza faydalı işlər görməsi diləyimizdir.

**Vüqar İskəndərov,**
**Milli Məclisin deputatı**

***https://olaylar.az/news/sosial/599738***

### *Yunus Oğuz çoxtərəfli yaradıcı şəxsiyyətdir*



Yunus Oğuzun doğum gününün ömrünü həsr etdiyi milli mətbuatımızın yarandığı günə təsadüf etməsi əlamətdar hadisədir. Bəlkə də taleyin bir qismətidir ki, Yunus Oğuz məhz 22 iyul - Milli Mətbuat Günündə dünyaya gəlib. Yunus Oğuz peşəkar mətbuat adamıdır. Onun rəhbərlik etdiyi və Azərbaycan media məkanında öz mövqeyi və fərqli dəst-xətti olan "Olaylar" qəzeti və eyni adlı informasiya agentliyi mövzu rəngarəngliyi, oxunaqlı araşdırmaları, geniş marağa və diqqətə səbəb olan təhlil və şərhləri ilə ciddi irəliləyişə nail olub, maarifləndirmə baxımdan böyük uğurlara imza atıb. Bu baxımdan öz xüsusi mövqeyi, işi və dəst-xətti ilə fərqlənən "Olaylar" qəzeti və "Olaylar" İnformasiya Agentliyi Azərbaycan cəmiyyətində tanınan, ictimai rəydə qəbul olunan kütləvi informasiya vasitələrindəndir. Azərbaycan dövlətinə, xalqımızın maraqlarına xidmət və vətənpərvərlik nümunəsi Yunus Oğuzun həyat fəaliyyətinin ana xəttini təşkil edir.

Yunus Oğuz çoxtərəfli yaradıcı şəxsiyyətdir. Azərbaycan ədəbiyyatında öz yeri, dəst-xətti olan Yunus Oğuz bir-birindən maraqlı tarixi romanları ilə geniş oxucu auditoriyasının böyük diqqətini və rəğbətini qazanıb. "Nadir şah", "Təhmasib şah", "Sultan Alp Arslan", "Əmir Teymur", "Atabəy Eldəniz", "Uçurum", "Cığır" kimi tarixi romanlar yazan Y.Oğuz bununla milli romançılıq tariximizdə əhəmiyyətli rol oynayır. Onun bütün əsərlərində türk dünyası, onun mədəniyyəti, tarixi, böyük şəxsiyyətləri, hökmdarları haqqında ümumiləşdirmələr ana xətt kimi özünü büruzə verir. Yazıçı-publisist Yunus Oğuzun "Cığır" tarixi romanını xüsusi qeyd etmək istəyirəm. Şuşa şəhərinin inşa edilməsinin 270 illiyinə və 44 günlük Vətən müharibəsinə ithaf olunmuş "Cığır" tarixi romanı aktuallığı, gənclər arasında vətənpərvərliyin və tarixi Zəfərimizin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Romanda Aprel döyüşləri və 44 günlük Vətən müharibəsinə gedən yol, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qazanılan Zəfərimiz oxuculara çatdırılıb. Bu, eləcə də digər əsərləri onun vətənpərvər yaradıcı şəxsiyyət olduğunu təsdiqləyir.

Bu əlamətdar gün münasibətilə Yunus Oğuzu təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Vüqar Rəhimzadə,**
**Milli Məclisin deputatı**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.4.**

## *Yunus Oğuzun yaradıcılığı unudulmaz təsir bağışlayır*



Yunus Oğuz çağdaş Azərbaycan ədəbiyyatının ən parlaq nümayəndələrindən biridir. Hazırda o Azərbaycanda tarixi roman janrının bir nömrəli nümayəndəsidir. O, yazdığı romanlarında həmən dövrü çox real və canlı şəkildə təsvir edə bilir. Yunus Oğuz zəngin biliyə malikdir, tarixi hadisələrə olduqca real və həqiqi rakursdan baxmağı bacarır. Ona görə də əsərləri oxunaqlıdır. Türk tarixi ilə dünyaca şöhrətli insanları o qədər real və aydın təsvir edir ki, sanki oxucu da bu hadisələrin iştirakçısı kimi özünü hiss edir. Yunus Oğuzun romanlarının təsirindən uzun müddət çıxmaq olmur. Qardaşımı təbrik edirəm, ona can sağlığı və böyük yaradıcılıq uğurları arzulayıram.

**Səyyad Aran,**
**Milli Məclisin deputatı**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.13.**

***"Adı çəkiləndə tarix xatırlanır: " Yunus Oğuz haqqında…***



Bu bir həqiqətdir ki, hər bir şəxsin adı çəkiləndə onun özünə məxsus bir assosiasiya yaranır. Yəni o insanı xəyalında canlandıranda dərhal müəyyən bir keyfiyyət yada düşür. Məsələyə bu kontekstdə yanaşdıqda, "Yunus Oğuz" dedikdə mənim ağlıma gələn ilk assosiasiya budur: müasir dövrümüzdə tarixi romanların ustadı.

Mənə sual veriləndə ki, Azərbaycanda tarixi romanları kim yazır, beynim ilk olaraq onu tapır - Yunus Oğuzu. Düşünmədən deyirəm: o yazıb. "Nadir Şah"ı da o yazıb, "Təhmasib Şah"ı da o yazıb, "Attila"nı da, "Əmir Teymur"u da... Bildiyim qədərilə, 22 ölkədə 47 kitabı işıq üzü görüb. Bax, məndə belə bir assosiasiya formalaşıb və doğrudan da gözəl qələmi var, çox istedadlıdır.

İstedadlı insanlar bənzərsiz olurlar. Bənzərsizlik isə istedada yaraşır - necə ki , bahar seli çaya, qəriblik qürub çağına, məğrurluq dağa, dalğa isə dənizə yaraşır. Yunus Oğuza da bu istedad və bənzərsizlik yaraşır.

Mən uzun müddətdir ki, istedadlı ədibi, jurnalisti, yazarı, həm də ictimai xadimi - Yunus Oğuzu tanıyıram. Onu tanıdığım illər ərzində  hər zaman vətənpərvər bir insan kimi qəbul etmişəm. Həmişə sözünün sahibi olub, həmişə sözünü deyib. Onun üçün ən əsası dövlətdir, dövlətçilikdir.

İstər ictimai-siyasi fəaliyyətində, istərsə də yazdığı əsərlərində bu ruh və bu mövqe özünü göstərir. Və illər necə də sürətlə keçir... 1960-cı ildə, 22 iyulda dünyaya gəlib. Bu tarix - 22 iyul - mənim üçün xüsusi əhəmiyyət daşıyır.

Görünür, bunun da bir mənası var. Elə bil, gələcəkdə Yunus Oğuz təkcə gözəl bir yazar deyil, həm də istedadlı bir jurnalist olacaqmış. Hansı gündə? 22 iyulda - yəni milli mətbuatımızın təməl daşının qoyulduğu gündə.

Yəqin ki, bu təsadüfi deyil. Bu illər ərzində biz görmüşük ki, Yunus Oğuz hər yeni əsərində püxtələşib, hər yeni əsərində öz imzasını daha da tanıdıb. Artıq qeyd etdiyim kimi, Yunus Oğuz dedikdə, tarixi romanları onun qədər yazan ikinci bir şəxs bu gün Azərbaycan ədəbiyyatında ağlıma gəlmir.

Yazarlarımız çoxdur, müxtəlif mövzularda yazırlar, amma tarixi şəxsiyyətləri Yunus Oğuzun qələmi ilə zirvəyə yüksəldən başqa bir yazıçı xatırlamıram. Baxıram : illər necə də tez keçir. İndi dostumuzun 65 yaşını qeyd edirik. Bu gün onu sevən hər kəs - dostları, yaradıcı insanlar, oxucuları - təbrik edirlər.

Mən də bu təbriklərə qoşuluram. Yunus Oğuza möhkəm can sağlığı arzulayıram. Bütün arzularına çatsın. Arzular isə ikidir: biri dostlarla, yoldaşlarla, insanlarla paylaşılan arzular, biri də yalnız Allahla bölüşülən - heç kimə demədiyin arzular. Mən Yunus Oğuza hər iki arzularına çatmağı arzulayıram - həm yaxınlarının bildiyi, həm də Allahla bölüşdüyü arzularına.

Təbrik edirəm, əziz dost, əziz qardaş. Ad günün mübarək olsun! Səsin həmişə ucalardan gəlsin. Dostlarının sevgisini qazanasan və bu sevgini qoruyub saxlaya biləsən. Bunun yolu isə ancaq - yeni-yeni əsərlər yazmaqdır. O əsərlər ki, Yunus Oğuzun istedadını, qabiliyyətini, yaradıcılıq ruhunu tam şəkildə ortaya qoyur və onu geniş oxucu kütləsinin sevimlisinə çevirir.

Bir daha ad günün mübarək olsun!.

**Elman Nəsirov,**
**Milli Məclisin deputatı**
***https://olaylar.az/news/sosial/599792***

***Yunus Oğuz dövlətçilik və ictimai fikir tariximizin salnaməsini yazır***



Yunus Oğuzun zəngin və çoxşaxəli fəaliyyəti təkcə yaradıcılıq nümunəsi deyil, həm də dövlətçilik və ictimai fikir tariximizin mühüm mərhələlərinə şahidlik edən bir salnamədir.

Yunus bəy müəllifi olduğu tarixi romanlar, publisistik məqalələr və qurucusu olduğu "Olaylar" mediası sayəsində informasiya cəmiyyətində möhkəm söz sahibinə çevrilib.

Yaradıcılığında milli dəyərlərin qorunması, tarixə və şəxsiyyətlərə obyektiv baxış, ictimai fikrə yön verən təhlillər həmişə xüsusi yer tutur. Yunus Oğuz sözün həm yazılı, həm də ictimai yükünü daşıyan, düşüncənin və ifadənin məsuliyyətini çiynində daşıyan yazıçı və ziyalıdır.

Hörmətli Yunus bəyi 65 illik yubileyi və doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bu əlamətdar gündə Yunus Oğuza möhkəm can sağlığı, davamlı yaradıcılıq enerjisi və yeni-yeni nailiyyətlər arzulayıram. Əminəm ki, onun fəaliyyəti bundan sonra da Azərbaycan mədəniyyətinə və ictimai düşüncəsinə dəyər qatmağa davam edəcək.

**Zahid Oruc,**
**Milli Məclisin deputatı**

***https://olaylar.az/news/sosial/599797***

***Əsərləriniz yaşadıqca, adınız da yaşayacaq!***



Hörmətli Yunus Oğuz!

Sizi ömrünüzün əlamətdar bir mərhələsi - yubileyiniz münasibətilə dərin ehtiramla təbrik edirəm!

Sizin qələminizdən doğan əsərlər sadəcə roman deyil - xalqımızın yaddaşı, tariximizin dirçəyişi, milli ruhumuzun güzgüsüdür. Siz oxucunu sadəcə keçmişə aparmırsınız, onu milli kimliyinin içərisinə qaytarırsınız. Hər yazdığınız sətirdə vətən sevgisi, qürur, mərdlik və tarixə sədaqət duyulur.

Ədəbiyyat aləmindəki yorulmaz mücadiləniz, sözə və ideyaya olan sədaqətiniz, xalqın ruhuna toxunan düşüncələriniz hər zaman dəyərlidir və dərin iz buraxır. Siz təkcə yazıçı deyil, həm də tarixlə danışan bir ruh, qələmi ilə millətə xidmət edən bir ziyalısınız.

Sizə bu gözəl gününüzdə möhkəm cansağlığı, ilhamla dolu uzun ömür və yeni yaradıcılıq zirvələri arzu edirəm. Qoy hər yeni yaşınızla birlikdə söz dünyanız daha da zənginləşsin, qəlbiniz hər zaman Vətən eşqi ilə döyünsün!

Əsərləriniz yaşadıqca, adınız da yaşayacaq!

**Tahir Mirkişili,**
**Milli Məclisin deputatı**

***https://olaylar.az/news/sosial/599817***

***Yunus Oğuzun imzası daim tanınan imzalardandır***



Yunus Oğuz imzası Azərbaycanda tanınan imzalardan biridir və bu gün də davamlı olaraq Azərbaycan tarixi ilə bağlı əsərləri qələmə alır. O, həm bir yazıçı, həm də publisist kimi Azərbaycan ədəbiyyatına və Azərbaycan tarixinə öz töhfəsini verir".

Yunus Oğuz Azərbaycan mətbuatında özünə-məxsus yeri və rolu olan, uzun müddətdir fəaliyyət göstərən "Olaylar" qəzetinin həm təsisçisi, həm də baş redaktorudur. Qəzet uzun illərdir ki, Azərbaycan ictimai-siyasi mühitində özünəməxsus mövqeyi ilə seçilir və bu gün də sözünü deməyə, öz rolunu ifadə etməyə davam edir. Onun qələmə aldığı kitablar tariximizin öyrənilməsi və təbliği baxımından xüsusi önəm və əhəmiyyətə malikdir.

Biz Yunus Oğuzu səmimi qəlbdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Arzu edirik ki, o, hər zaman öz qələmi ilə cəmiyyətimizin inkişafına, maariflənməsinə və digər vacib məsələlərə öz töhfəsini verməyə davam etsin.

**Ceyhun Məmmədov,**
**Milli Məclisin deputatı**



Hörmətli Yunus bəy,

Sizi - milli fikir və ictimai düşüncə məkanımızda özünəməxsus mövqeyə malik olan tanınmış aydınımızı, söz və fikir adamını 65 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Siz uzunmüddətli, səmərəli fəaliyyət göstərmiş "Azərbaycanın Bütövlüyü Uğrunda Cəmiyyət" ictimai birliyinin qurucu-sədrisiniz. Sizin həyat yolunuz vətəndaş cəmiyyətinə bağlı intellektual aydınımızın, milli-mənəvi məsuliyyət daşıyan qələm sahibinin həyat yoludur. Ulu tarixi köklərə söykənən romanlarınızdan tutmuş, gündəlik ictimai-siyasi hadisələrə çevik və məsuliyyətli münasibət ortaya qoyduğunuz publisist məqalələrinizədək hər bir fəaliyyətiniz vətəndaş cəmiyyətində təfəkkürə çağırış, milli yaddaşa söykənən duruş, ictimai məsuliyyət örnəyidir.

"OLAYLAR" qəzetinin qurucusu və baş redaktoru kimi Siz təkcə mətbuat tariximizə deyil, həm də fikir plüralizmi, azad söz və maarifçi missiya baxımından ictimai fikrə töhfələr vermisiniz. Sizin rəhbərliyinizlə formalaşan media platforması uzun illərdir ki, cəmiyyətin ictimai nəbzini tutan, milli məsələlərə səs verən, maarifləndirici və vətəndaş mövqeyi aşılayan bir tribuna kimi fəaliyyət göstərir.

Biz Sizin və rəhbərlik etdiyiniz media orqanının milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaş cəmiyyətinin gücləndirilməsi və ictimai şüurun yüksəldilməsi sahəsindəki xidmətlərinizi yüksək qiymətləndiririk.

Sizə möhkəm cansağlığı, yaradıcılıqda və ictimai düşüncə məkanımızda yeni uğurlar arzulayıram!

Yubileyiniz mübarək olsun!

**Fazil Mustafa,**
**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.12.**

***Yunus Oğuz xalqımızın tarixi yaddaşını yaşadan yazıçıdır***



Hörmətli Yunus bəy, sizi - müasir Azərbaycan ədəbiyyatının və jurnalistikasının tanınmış simasını, sözün əsl mənasında doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm".

Sizin həm yazıçı, həm də ictimai xadim kimi fəaliyyətiniz uzun illərdir ki, cəmiyyətimizə sanballı töhfələr verir. Yaradıcılığınızda milli tariximizin dərin qatlarına enərək oxucuya həm estetik zövq, həm də tarixi təfəkkür bəxş edirsiniz. Sizin romanlarınız sadəcə ədəbi hadisə deyil, həm də xalqımızın keçmişinə və kimliyinə dair bənzərsiz təhlillər toplusudur. Eyni zamanda, mətbuat sahəsindəki yorulmaz fəaliyyətiniz, ictimai-siyasi proseslərə çevik münasibətiniz və prinsipial mövqeyiniz nümunəvi xarakter daşıyır.

Azərbaycan ziyalısı olmaq məsuliyyəti böyük missiyadır. Sizin bu missiyanı yüksək səviyyədə və böyük ləyaqətlə yerinə yetirdiyinizi demək şərəfdir.

Sizə möhkəm can sağlığı, bitib-tükənməyən yaradıcılıq enerjisi və yeni-yeni uğurlar arzulayıram!

**Nizami Cəfərov,**
**akademik**

***https://olaylar.az/news/sosial/599786***

***Jurnalistika və ədəbiyyatda iz qoyan sənətkar – Yunus Oğuz***



Yunus Oğuz Azərbaycan mədəni mühitində, ədəbi-bədii mühitində və jurnalistika mühitində çox ciddi, önəmli yerlərdən birini tutan bir sənətkar, bir yazardır. Onu çox ciddi statuslarla qiymətləndirmək, dəyərləndirmək olar.

Yunus Oğuz "Olaylar"ı yaratmaqla Azərbaycan jurnalistika sistemində çox ciddi, müstəqil bir xətt formalaşdırdı. Jurnalistika sistemimizə ədəbi məktəb səviyyəsində gətirdiyi "Olaylar" qəzeti və "Olaylar" saytı ilə bizə məlumdur. Onun rəhbərlik etdiyi bu qəzet və bu sayt, sözün həqiqi mənasında, müasir Azərbaycan jurnalistikasına bir töhfədir.

Digər tərəfdən, Yunus Oğuz Azərbaycan bədii fikrində, ədəbiyyatında müasir dövrdə çox önəmli yer tutan bir yazıçıdır. Əlbəttə, yazıçılarımız çoxdur, sənətkarlarımız çoxdur. Amma Yunus Oğuz bizi mövzuları ilə təmin edir. Azərbaycan tarixinin ən çətin dövrlərini özünün müxtəlif romanlarında ortaya qoyub. Onun Azərbaycan tarixi ətrafında yazdığı romanlar bəzən o qədər təəccüb doğurur ki... Təəccüb ondadır ki, bu faktları o necə axtarır, necə tapır? Çünki o faktların çoxu - bəlkə də romanlarındakı faktların əksəriyyəti, demək olar ki, yeni faktlardır.

Faktlar bir yana, həm də Yunus Oğuz bu faktları ədəbi-bədii dildə o qədər gözəl ifadə edir ki, o əsərləri oxumamaq mümkün deyil. Ona görə də Yunus Oğuzun ədəbiyyatımıza, jurnalistikamıza gəlişi və 65 yaşı mübarək olsun.

**Cahangir Məmmədli,**
**professor**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.8.**

***Tarixi romanların müəllifi, publisist qələmin ustası – Yunus Oğuz 65 yaşında***



Yunus Oğuz bizim tanınmış yazıçımız, gözəl nasirimiz və daim hadisələrin içində olan publisistimizdir. Onun son illərdə qələmə aldığı tarixi romanlar Azərbaycan cəmiyyətində çox ciddi qarşılanır. Bu əsərlər yüksək qiymətləndirilir. Onlar daha çox Şərq hökmdarları, Azərbaycan tarixinin görkəmli simaları, böyük bir regionda hadisələrin önündə olmuş, tarixi yaradan sərkərdələr və hökmdarlar haqqındadır. Hesab edirəm ki, bu əsərlər xüsusən gənc nəslin maraqla, sevə-sevə oxuduğu romanlardır.

Məsələn, "Nadir Şah", "Əmir Teymur" kimi romanlar Azərbaycan nəsrinin bu günkü çox ciddi nailiyyətləri hesab oluna bilər. Gözəl tərəfi də budur ki, tarixin ədəbiyyat vasitəsilə, ədəbi nümunələrlə təbliğ olunması dünya nəsrində maraqlı tendensiyalardan biridir. Azərbaycan ədəbiyyatında da bu tendensiya XX əsrin əvvəllərindən mövcuddur və bu ənənəni bu gün çox uğurla Yunus Oğuz davam etdirir.

Bu romanlar təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında, Orta Asiya respublikalarında da böyük maraqla qarşılanır, yayılır, çap olunur və buna yalnız sevinmək olar.

Onun maraqlı yazı texnikası, tarixi faktlarla işləmə bacarığı, dünənlə bu gün arasında paralellər aparması, tarixi incəlikləri bədii elementlər vasitəsilə bugünkü nəslə çatdırması Yunus Oğuzun bir yazıçı kimi ən gözəl cəhətlərindəndir.

Onu otuz ildən çoxdur tanıyıram. Həmişə fəlsəfə və sosiologiya problemləri ilə maraqlanan, cəmiyyətin bugünkü mənəvi-ekoloji durumunu əks etdirən, problemləri göstərən, Azərbaycanın ictimai-siyasi həyatı ilə bağlı gedən tendensiyaları ustalıqla qələmə alan bir publisistdir Yunus Oğuz. Yəni, o, bizim ən məhsuldar publisistlərimizdən biridir.

Demək olar ki, hər hadisəyə münasibəti var, hər problemə xüsusi yanaşması var. Onun püxtələşmiş publisist qələmi bu gün sözün əsl mənasında Azərbaycan publisistikasına və ictimai düşüncəmizə çox ciddi mesajlar verir.

Hazırda özünün ən kamil, ən yetkin yaş dövrünü yaşayır - 65 yaşı tamam olur. Bu münasibətlə əziz dostumuzu, gözəl yazıçımızı, publisistimizi ürəkdən təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayıram.

**Qulu Məhərrəmli,**
**professor**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.13.**

## *Əsl ziyalı və vətənpərvər yazıçı - YUNUS OĞUZ-65*



Şanlı tariximizin son 30 ilinə nəzər salsaq, çox ağır, təhlükəli, eyni zamanda çox şərəfli günlərini geridə qoyduq. Bu 30 ildə bir çox hadisələrin şahidi olduq.

Hər kəsin qələmi vətən, xalq, dövlətçilik naminə yazmır. Hər kəsin sinəsi Vətən naminə qalxana çevrilmir. Hər kəs Vətən naminə canını qurban verməyə hazır olmur və qurban da vermir.

Bu proseslər zamanı ziyalıların da rolu önəmlidir. Lakin əfsuslar olsun ki, bu ada hər iddia edən də əsl ziyalı ola bilmir. Ziyalı olmaq mənim baxış bucağımdan diplomu-ali təhsili olmaq demək deyil. Elə diplomlular var ki, Vətənin, Dövlətin xalqın ən ağır zamanlarında özlərini komufulyaj edərək "suyun dibinə" cumaraq "nəyimə lazımdır" deyərək öz üfünət verən cəmdəklərini Vətənin qara günlərində, xalqın rus imperiyasına qarşı Azadlıq mücadiləsində, yenicə qazanılmış dövlətçiliyimizin məhv edildiyi, məkrli qüvvələr tərəfindən Vətən torpaqlarını dörd yerə parçalanmaq təhlükəsində kənara çəkdilər, görməzdən gəldilər. Bəla da burasındadır ki, belələrinin böyük əksəriyyəti dünən də, bu gün də yenə də Vətəndən, Dövlətdən bəhrələnməkdə utanmadan, həya etmədən qidalanırlar. Mən bu yazımda belə yaramazlardan danışmayacam. Milli mətbuat günümüzün 150 ili tamam olan bir gündə, 65 il şərəfli ömür yolu qət etmiş və onun da 50 ilini mətbuatımıza xidmət etmiş, milli azadlıq hərəkatında rus imperiyasına qarşı xalqımızın şərəf savaşına qalxdığı zaman ləyaqətlə mücadilə edən, Azərbaycanımızın müstəqilliyinin bərpasında böyük xidmətləri olan, tarixin gizli qatlarında uyuyan şanlı tariximizi gənc nəslə çatdıran, milli kimliyimizi-dədə kökümüzü daima təbliğ edən, turançı, tarixi romanların müəllifi, daima cəmiyyətimizdə əsl ziyalı mövqe ilə seçilən, Olaylar İnformasiya Agentliyinin və Olaylar qəzetinin baş direktoru, yazıçı - publisist Yunus Oğuzun 65 yaşı tamam olması münasibətilə təbrik edirəm. Belə bir uzlaşma da Tanrının Yunus Oğuza göstərdiyi bir lütfdür. 150 milli mətbuatın yaşı, 65 Yunus Oğuzun, 50 il isə jurnalistlik fəaliyyəti!

Hörmətli Yunus Oğuz, Tanrıdan sizə möhkəm can sağlığı arzu etməklə yanaşı Vətən torpaqlarında dədə ruhların nuru ilə qorunan dədə kökümüzün şanlı səhifələrini cəmiyyətimizə çatdırmaqda sizə uğurlar arzu edirəm.

**Cavid İsmayıl,**
**Turan Araşdırma İB-nin sədri**

***https://olaylar.az/news/sosial/599770***

***Yunus Oğuz – bütöv şəxsiyyətin simvolu***



Bir neçə on illərdən keçmiş şəxsi dostluğumuz var. Onun haqqında yalnız dost olduğumuz üçün danışmıram. Dostum olmayan sadə bir azərbaycanlı kimi tanısaydım da, onun haqqında, yenə eyni sözləri deyərdim. Onu heç vaxt sınamadım. Fikirdə də olmadım. Çünki başlanğıcdan ona güvənməyin ən yaxşı başlanğıc olduğuna inandım. Əminəm ki, onunla yaxından dostluq edənlərin, onu yaxından tanıyanların hamısının qənaəti belədir. Təpədən dırnağa qədər vətənsevər, dövlətçi olan bir şəxsiyyətin insanlara özü haqqında ilk tanıtım mesajları başqa cür necə ola bilər ?! Yaratdığı "Olaylar" media qrupundan, yazdığı çoxsaylı tarixi romanlarından əvvəl o bir şəxsiyyət olaraq artıq vətənsevər və dövlətçi idi. Məhz bunlar olduğuna görə "Olaylar"-ı və tarixi romanları ərsəyə gətirdi. Bunları yazmaq üçün qandan gələn vətənpərvər olmaq lazım idi. Necə ki,Yunus Oğuz oldu.

Onun barəsində çox mənalarda dolğun danışmaq mümkündür. Çünki həqiqətən dolu adamdır. Şəxsiyyəti bütöv, fikri qəti və aydın, yaradıcılığı hərtərəfli, işləri məqsədyönlü, öz xarakterinə sadiq, getdiyi yolun uğurlarına inanan....Yunus bəyin bütövlük elementlərinin tam demədiyim siyahısı budur...

Azərbaycanın yaradıcı, ictimai-siyasi fəallarının hamısının olmasa da, çoxunun həyatı və fəaliyyətləri haqqında nələrisə bilirik .Üzdə olan şəxslərin kim və nəçi olduqları ən kritik dönəmlərdə üzə çıxır. Məhz bu məqamlarda "kimin əlinin hansı dövlət xadiminin və hansı dövlətin cibində olduğunu" aydın görmək olur. Müstəqillik tariximizin bütün mübarizə məqamlarında Yunus Oğuz "əli yalnız öz cibindən çıxan" şəxsiyyət kimi tanındı...

Mən Yunus Oğuzla dostluğumuzla qürur duyuram. Onunla dostluq eyni zamanda Azərbaycan ideyası ilə, milli-mənəvi , tarixi dəyərlərimizlə və insaniyyətlə dostluq deməkdir...

Həmişə belə qal, DOSTUM!

65-dən başladığımız yeni ömür səhnəsinə xoş gəldin!.

**Aydın Quliyev,**
**"Bakı-Xəbər" qəzetinin baş redaktoru**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.8.**



Hörmətli Yunus (Oğuz) müəllim,

Məmnuniyyətlə, sizi həyatınızın əlamətdar tarixi - doğum gününüz - 65 illik yubileyiniz münasibətilə təbrik edir, sizə möhkəm can sağlığı, səadət və gələcək işlərinizdə davamlı uğurlar arzu edirik.

Siz zəngin və səmərəli həyat fəaliyyətinizlə milli mətbuatımızın, dövlətçiliyimizin inkişafına xidmət etməklə, müstəqil dövlətçiliyimizin qüdrətlənməsinə - cəmiyyətin sağlam informasiya ilə təmin olunmasına xidmət etmiş, Vətənpərvərlik mövzuları, Azərbaycan Ordu quruculuğu prosesi daim diqqətdə saxlanılmış, müdafiə siyasəti ilə bağlı açıq informasiyalar işıqlandırılmış, 44 günlük Vətən müharibəsi zamanı həqiqət və reallıqlar fonunda media nümayəndələri arasında ön sırada dayanmışınız.

Sizin eyni zamanda yaradıcılığınızda milli ruhda və qəhrəmanlıq əzmində tarixi romanlarınız vardır ki, hərbi vətənpərvərlik baxımından bu da mühüm əhəmiyyət kəsb edir. Təkrarolunmaz yaradıcılığınızla yeni cərəyan yaratmağa nail olmuşunuz. Sağlam nəslin yetişməsinə əvəzsiz töhfə verirsiniz.

Fürsətdən istifadə edərək, sizə və əməkdaşlarınıza Azərbaycan milli mətbuatının yaranmasının 150 illiyi münasibətilə təbriklərimizi çatdırır, sizdən milliyönlü dürüstlük, obyektivlik və operativlik naminə işlərinizdə yeni-yeni nailiyyətlər gözləyirik.

**Yəhya Babanlı,**
**tarix üzrə fəlsəfə doktoru, diaspor məsələləri üzrə ekspert**

***https://olaylar.az/news/sosial/599824***

***Yunus Oğuz – qələmi ilə tarix yazan, sözü ilə vətənə xidmət edən şəxsiyyətdir***



22 iyul - Azərbaycan ədəbi və media cameəsinin görkəmli siması, yazıçı, publisist və "Olaylar" qəzetinin təsisçisi və baş redaktoru Yunus Oğuzun doğum günüdür. 65 yaşı tamam olur.Bu münasibətlə onu səmimi qəlbdən təbrik edir, sağlam və mənalı ömür, yaradıcılıq uğurları və vətənə xidmət yolunda yeni nailiyyətlər arzulayırıq

Yunus Oğuz çağdaş ədəbiyyatımızın düşünən, duyan və yazan nadir qələm sahiblərindəndir. Onun tarixi romanları - "Nadir şah", "Təhmasib şah", "Əmir Teymur" kimi əsərlər milli yaddaşımızın ədəbi portretini yaradır. Bu əsərlərdə təkcə tarix deyil, milli kimliyimizin təməl sütunları da canlandırılır.

Eyni zamanda, Yunus Oğuzun "Ovçu" adlı əsəri xüsusi vurğulanmalıdır. Bu roman Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin həyatına və qəhrəmanlıq yoluna həsr olunub. "Ovçu" yalnız bioqrafik roman deyil - həm də vətən uğrunda şəhid olmuş bir övladın timsalında bütün Azərbaycanın övladlarına ədəbi abidədir. Yunus Oğuz bu əsərdə Murad Mirzəyevin qəhrəmanlığını sadəcə bir döyüşçü kimi yox, bir ata, bir oğul, bir dost və bir insan kimi təqdim edir. Oxucu Muradın şəhadətə gedən yolunda onun daxili aləmini, ruh yüksəkliyini, əqidəsini dərk edir və onunla fəxr edir. Jurnalistika sahəsində də Yunus Oğuz cəmiyyətin sözünə çevrilə bilmişdir. "Olaylar" qəzeti uzun illərdir Azərbaycan mediasında prinsipial mövqeyi, obyektiv yanaşması və milli maraqlara sadiqliyi ilə seçilir. Onun rəhbərliyi ilə bu media orqanı həm informasiya platforması, həm də milli təfəkkürün daşıyıcısı olub.

Yunus Oğuz - qələmi ilə tarix yazan, sözü ilə vətənə xidmət edən bir şəxsiyyətdir. Onun həm ədəbi irsi, həm də jurnalistlik fəaliyyəti gələcək nəsillər üçün örnəkdir.

Bir daha dəyərli qələm sahibini doğum günü münasibətilə təbrik edir, ona can sağlığı və vətənə xidmət yolunda yeni yaradıcılıq zirvələri arzulayırıq!

**Bəhruz Quliyev,**
**"Səs" qəzetinin baş redaktoru**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.8.**

***Yunus Oğuz Azərbaycan ədəbiyyatında cığır açan ədəbi körpüdür***



Yunus Oğuz Azərbaycan ədəbiyyatında öz dəsti-xətti ilə seçilən, fərqlənən və heç kəsə bənzəməyən bir yazıçıdır. O, xalqının keçmişini dərindən öyrəndiyi və bildiyi üçün bu gününə və gələcəyinə dair kifayət qədər aydın mövqeyi, fikirləri və düşüncələri olan bir müəllifdir. Bu biliyə əsaslanaraq, öz yazı üslubunu və ədəbi istiqamətini də olduqca sadə və aydın şəkildə müəyyən edə bilir. Bu isə hər yazıçıda olmayan, yalnız çox az sayda qələm sahibində rast gəlinən bir keyfiyyətdir. Məhz buna görə də Yunus Oğuzun istənilən kitabını əlinə alıb oxuyanda müəllifin adı yazılmasa belə, dərhal hiss olunur ki, bu əsər yalnız Yunus Oğuzun qələminin məhsuludur. Onun əsəri "Cığır" olsa da, o özü Azərbaycan ədəbiyyatında cığır aça bilmiş müvəffəq və əbədi bir körpüdür. Digər tərəfdən, Yunus Oğuz Türk dünyasında da kifayət qədər tanınır və ədəbi, ictimai-siyasi sahədə önəmli xidmətlər göstərmişdir.

Mənim fikrimcə, uğurlu bir ədəbiyyatçı yalnız qələmi ilə deyil, həm də ictimai mövqeyi və siyasi aktivliyi ilə seçilməlidir. Xüsusilə Şərq təfəkküründə və Şərq cəmiyyətində buna həm ehtiyac, həm də tələbat var. Məhz bu baxımdan Yunus Oğuz eyni zamanda ictimai-siyasi xadimdir. O, yaxşı bilir ki, qələmi Koroğlu, Şah İsmayıl kimi qılıncla birləşdirmədən heç bir uğur qazanmaq olmaz. O, dərk edir ki, ədəbiyyat ən böyük siyasətdir. Buna görə də Vətən torpağına olan sevgisini həm əsərlərində, həm də ictimai fəaliyyətində dolğun şəkildə nümayiş etdirib. Bu isə Azərbaycan cəmiyyəti və Türk dünyası tərəfindən hər zaman yüksək qiymətləndirilib və bundan sonra da qiymətləndiriləcəkdir.

Bir məsələni də xüsusi qeyd etmək istəyirəm: Yunus Oğuz xalqını və dövlətini təmənnasız şəkildə sevir. O, heç bir zaman nəyinsə qarşılığını gözləmədən xidmət edib. Həmçinin, heç bir vəzifə və məqamın arxasınca getməyib. Mən onu şəxsi tanıyan biri kimi deyə bilərəm ki, Yunus Oğuzda gördüyüm ən mühüm və əvəzolunmaz xüsusiyyətlərdən biri də bu təmənnasızlıqdır. Bu təmənnasız yanaşma həm dostlarına, həm Vətənə, həm də dövlətə münasibətdə özünü göstərir. Düşünürəm ki, bu keyfiyyət digər ədəbiyyatçılarımızda və xüsusilə ictimai-siyasi xadimlərimizdə də olmalıdır - yəni qarşılıq gözləmədən Vətənə, dostlara və dövlətə xidmət etmək!

Yunus müəllimi ad günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona yeni-yeni uğurlar və davamlı yaradıcılıq uğurları arzu edirəm

**Sayman Aruz,**
**Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan Şöbəsinin rəhbəri**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.8.**

***Yunus Oğuzun 65 illik yolu: Mətbuat və ədəbiyyatda dərin izlər***



Mən 35 ildən çoxdur ki, Yunus Oğuzu tanıyıram. Son 20-25 ildə isə demək olar ki, bir yerdə mətbu fəaliyyətimizdə Yunus Oğuzun doğum günləri həmişə bizim üçün yadda qalan olub. Çünki Yunus Oğuzun doğum günü Azərbaycan Milli Mətbuat Gününə təsadüf edir. Bunun bir simvolik mənası var. Çünki Yunus Oğuz mətbuatla sıx bağlı insandır və gənc yaşlarından mətbuat orqanları yaradıb. Onun rəhbərlik etdiyi "Olaylar" qəzetinin, "Olaylar" İnformasiya Agentliyinin 30 illiyini bir müddət əvvəl Mətbuat Şurasında təntənəli şəkildə qeyd etdik.

Azərbaycan qəzetləri sırasında özünəməxsus yer tutan "Olaylar" qəzeti Yunus Oğuzun rəhbərliyi ilə istedadlı jurnalistlərin ortaya qoyduğu bir mətbuat nümunəsidir.

Yunus Oğuz eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür və dəyərli tarixi əsərlərin müəllifidir. Onun Azərbaycan tarixinə yeni yanaşma ilə yazdığı bədii əsərlər oxucular tərəfindən böyük maraqla qarşılanır.

Mən həmişə demişəm: mənim anam Yunus Oğuzun romanlarının ən sədaqətli oxucusudur. Hər bir yeni roman çıxan kimi Yunus Oğuz onu avtografla göndərir və anam da onu maraqla oxuyur.

Eyni zamanda, Yunus Oğuzun Azərbaycan tarixi ilə bağlı elmi məqalələri də öz fərqliliyi, yeni baxışı ilə seçilir.

Yunus Oğuz enerjilidir, daim yazır, yaradır, hərəkətdədir, tədbirlərdə iştirak edir, fəaldır. Ona görə də onun 65 yaşı mənə də təəccüblü gəlir və elə bilirəm ki, Yunus Oğuz gənclik enerjisi ilə dolu bir insandır.

Yunus Oğuzla səfərə çıxmaq, müxtəlif ölkələrdə olmaq özü də maraqlı bir səyahətdir. Dəfələrlə birlikdə müxtəlif tədbirlərdə, müxtəlif ölkələrdə iştirak etmişik. Həmişə bu barədə xoş xatirələrimiz yaranıb.

Yunus Oğuzu yubileyi - 65 yaşı münasibətilə təbrik edirəm və ona gələcək illərdə çox-çox yaradıcılıq uğurları arzulayıram.

**Rəşad Məcid,**
**Azərbaycan Mətbuat Şurasının sədri**

**Olaylar.- 2025.- 11-17 iyul (№23).- S.8.**

***Yunus Oğuz müasir Azərbaycan ədəbiyyatının önəmli simalarındandır***



Yunus Oğuz uzun illərdir tanıdığım bir insandır. İlk növbədə, Yunus müəllimi bir insan kimi dəyərləndirmək istərdim. O, olduqca mehriban, dostcanlı və ətrafındakı insanların problemlərinə həssas yanaşan bir şəxsiyyətdir. Bu baxımdan, gənc yaşlarımdan etibarən Yunus Oğuzu tanımağıma, onunla ünsiyyətdə olmağıma və daimi dostluq münasibətlərimizin mövcud olmasına görə özümü xoşbəxt sayıram.

Yunus Oğuz Azərbaycan ictimai-siyasi həyatının ən önəmli simalarından biridir. O, hər zaman Azərbaycanın müstəqilliyi uğrunda, milli maraqları naminə mübarizə aparıb. Azərbaycanın haqlı mövqeyinin, dəyərlərinin həm yerli, həm də beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunması üçün ciddi səylər göstərib, bu istiqamətdə böyük töhfələr verib.

Yunus müəllim haqqında biz həm də həmkarımız kimi danışmalıyıq. O, Azərbaycanın müstəqil mətbuatının əsasını qoyan şəxslərdən biridir. Vaxtilə və hazırda rəhbərlik etdiyi nəşrlər Azərbaycan mətbuat tarixində xüsusi yeri olan kütləvi informasiya vasitələridir. Şübhəsiz ki, Yunus Oğuzun həyat və yaradıcılığının ən mühüm sahələrindən biri onun ədəbi fəaliyyətidir. Onun bir çox romanları mövcuddur və bu romanların əksəriyyəti tarixi mövzulara həsr olunub. Demək olar ki, onların böyük bir qismini oxumuşam. Bu əsərlər yüksək peşəkarlıqla yazılıb və Azərbaycan tarixi şəxsiyyətlərinə həsr olunub. Bu romanlar yeni nəslə və ədəbi oxuculara həmin şəxsiyyətləri tanıtmaq istiqamətində mühüm işlərdən biridir. Təsadüfi deyil ki, Yunus Oğuzun bəzi romanlarından parçalar dərsliklərə salınıb, yaradıcılığı isə tədqiqatçılar tərəfindən geniş şəkildə araşdırılıb. Onun yaradıcılığı müasir Azərbaycan ədəbiyyatının ən önəmli nümunələrindən biri kimi qiymətləndirilir. Yunus müəllimi doğum günü və yubiley yaşı münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, bu yubiley Azərbaycan mətbuatının 150 illiyinə təsadüf edir və Milli Mətbuat Günü ilə eyni tarixdə qeyd olunur.

Bu baxımdan, hər iki əlamətdar gün münasibətilə Yunus müəllimi səmimi-qəlbdən təbrik edirəm!.

**Taleh Şahsuvarlı,**
**yazıçı, jurnalist, AzNews.az analitik-informasiya portalının rəhbəri**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.16.**

***Tarixin söz elçisi- Yunus Oğuz -65***



Yunus Oğuz türk tarixində iz qoymuş şəxsiyyətlər və hadisələr vasitəsilə milli kimliyimizi, mədəniyyətimizi, dəyərlərimizi incə, fəlsəfi mesajlarla dünyaya çatdırmağı qarşısına məqsəd qoyan bir yazıçı kimi müasir ədəbiyyatımızda müstəsna yerə sahibdir. Yazıçı bütün əsərlərində türk xalqlarının min illik tarixi ilə bağlılığı qoruyub saxlayaraq, bir millət olaraq kim olduğumuzu, haradan gəldiyimizi və hara getdiyimizi anladır. O, əsərlərində tarixin gələcəyimizə təsir edə biləcək dərslərini ön planda tutaraq böyük türk tarixinin necə formalaşdığını etap-etap təsvir edir, gənclərimizi öz tarixi kimliklərini kəşf etməyə dəvət edir.

Yunus Oğuzun əsərlərində hər bir sözün, cümlənin və hadisənin strukturda özünəməxsus yeri vardır. Mətnin hər bir elementi fəlsəfi, tarixi, mədəni filtrdən keçirilərək, həmin tarixi dövrün ruhunu zərgər dəqiqliyi ilə çatdırmağa xidmət edir. Yazıçı, bəzən bir cümlə ilə bir insanın bütün həyatını, onun mübarizələrini, arzularını və xəyallarını ifadə edə bilir. Bu, onun yazı üslubunun ən güclü cəhətlərindən biridir; çünki bir cümlə, bəzən bir romanın dərinliyini, bir insanın həyatının bütün çalarlarını özündə cəmləyə bilir.

Yazıçının yazı üslubu, bədii dili zənginliyi ilə yanaşı, sadə və anlaşılan olması ilə də seçilir. O, mürəkkəb tarixi konsepsiyaları sadə, lakin bədii cəhətdən təsirli bir şəkildə geniş oxucu kütləsinə çatdırmağı bacarır. Yunus Oğuz, bədii dilin imkanlarından istifadə edərək, tarixi şəxsiyyətlərin və hadisələrin sosiokultural kontekstini açır, oxucunu həmin dövrün atmosferinə daxil edir.

Yunus Oğuz oxucuya təqdim etdiyi tarixi-bədii fakturalarda təsvir etdiyi dövrün sosiopolitik kontekstinə xüsusi diqqət yetirir, millətin tarixin labirintlərində necə formalaşdığını bədii müstəvidə məharətlə əks etdirir. Yazıçı tarixi hadisələri yalnız faktlar silsiləsi kimi təqdim etmir, eyni zamanda bu hadisələrin arxasında duran insan duyğularını, cəmiyyətin ruhunu və sosial dinamikaları da ön plana çıxarır.Onun əsərlərindəki dərin fəlsəfi qatlar bir tərəfdən milli özünüdərkin, digər tərəfdən isə insanın daxili mübarizələrinin geniş bir panoramasını təqdim edir.

65 yaşına qədəm qoyan Yunus Oğuz, ədəbiyyat sahəsindəki zəngin yaradıcılığı ilə yalnız milli kimliyin formalaşmasında tarixin rolunu vurğulamaqla kifayətlənmir, eyni zamanda gənclərə də öz köklərini unutmamağı, mədəniyyətlərini yaşatmağı və gələcək nəsillərə ötürməyi öyrədir. Onun əsərləri, dərin tarixi və mədəni konteksti ilə gənc nəslə öz kimliklərini tapmaqda və bu kimliyi qorumaqda kömək edir. Yunus Oğuzun yaradıcılığı, bütün aspektləri ilə ümumtürk gəncliyinə bir çağırışdır: "Tarixinizi bilin, mədəniyyətinizi yaşadın, gələcəyinizi formalaşdırın!" Bu mesaj, gənclərin öz köklərinə bağlı qalmasının və mədəni irsi yaşatmalarının nə qədər vacib olduğunu önə çıxarır. Yunus Oğuz bütün yaradıcılığını ifadə edən bu mesajla gəncləri yalnız keçmişlə bağlı olmağa deyil, eyni zamanda bu keçmişi gələcəyə daşımağa da təşviq edir.

**Elnarə Qaragözova,**
**filologiya üzrə fəlsəfə doktoru**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.13.**

***Yunus Oğuz vətənimizdə türkçülük şüurunun gəlişməsində çox işlər görüb***



Dostum, qələmdaşım Yunus Oğuzla tanışlığımızın tarixini xatırlamıram. Mənə elə gəlir ki, onunla bir məkanda və bir zamanda anadan olmuşuq. Cavanlıqdan yox, uşaqlıqdan bəri yol gəlirik və bu yolun sonsuzluğuna inanıram. Yunusun bir sözü var, deyir ki, mən ruh, əqidə, düşüncə qohumluğunu qan, bioloji qohumluqdan üstün sayıram. Mənə görə, düz deyır. Biz onunla ruh qohumuyuq.

Yunus Oğuz vətənimizdə türkçülük şüurunun gəlişməsində, türk kimliyimizi tanımağımızda ideoloji baxımdan çox işlər görüb: istər öz əsərlərində, istərsə davranışında və tarixi romanlarında. O, Azərbaycanımızda tarixi romançılığı inkişaf etdirən yazarlarımızdandır və son illər bir-birinin ardınca uğurlu əsərlər yazır. "Nadir şah", "Əmir Teymur", "Çingiz xan", "Təhmasib şah" onun qələmində yeni obraz kimi qarşımıza çıxır. Onun Qarabağ müharibəsinə həsr etdiyi, hələki son "Cığır" romanı da oxucularımızın rəfində mühüm yer tutur.

Mən Yunus Oğuzun əsərlərinin çoxunun bədii redaktoru olmuşam və deməli, hamısını da oxumuşam.

O, Azərbaycanda müstəqil mətbuatın yaradıcılarından biridir. Uzun illərdir ki, "Olaylar Holdinq"ə uğurla rəhbərlik edir. Bu redaksiyadan onlarla istedadlı jurnalist çıxıb və indi ölkəmizin müxtəlif mətbu orqanlarında çalışırlar.

Yunus Oğuz etibarlı dost, sirdaşdır. Onun haqqında müxtəlif nəslə mənsub ədəbiyyat biliciləri və həmkarları çoxsaylı yazılar yazıblar. Onların arasında mən də varam.

Yunus Oğuz gözəl babadır.

Dostumun yubiley yaşını təbrik edir, ona can sağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayıram...

**Elçin Hüseynbəyli,**
**yazıçı**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.13.**

***Yunus Oğuz məktəbi…***



...Hərdən mənə elə gəlir ki, yazıçı-siyasətçi, jurnalist, naşir... Yunus Oğuzun bir əsr yaşı var! Çünki onda gördüyüm dünyagörüş, intellekt, məhsuldarlıq və özünəgüvən yalnız dünyanın hər üzünü yaxşı mənada görmüş bir insanda ola bilər.

O, yaxşı dostdur, sözübütövdür, dəyişməz mövqeyə və münasibətə malik şəxsiyyətdir!

Uzun illərdir tanıdığım Yunus Oğuzda diqqətimi daha çox çəkən həm də onun dəyişməz obrazı və özüdür. İctimai rəydə, jurnalist həmkarlarımız arasında olan rəy söylədiklərimə sübutdur. Özü kimi, sözü də bütövdür. Qısası, olduğu kimi görünəndir, göründüyü kimi də olandır. Bu mənada, hesab edirəm ki, jurnalistika sahəsində də Yunus Oğuzun özünün təsis etdiyi bir məktəb var-Yunus Oğuz məktəbi!

Yunus bəyin təmkinliliyi, hər bir problemi öz daxili inamı və gücü ilə həlletmə qabiliyyəti də fərqlidir. İndiyədək görməmişəm ki, hansısa problemin həlli üçün kimlərəsə ağız açsın, müraciət etsin, şikayətlənsin.

"Şikayət" dedim, aramızda olan bir məsələdə bunun şahidi olmuşam. Təsisçisi olduğu "Olaylar" qəzetinin başı üzərində bir problem dolaşırdı, müzakirə əsnasında dedim ki, əlçatan yaxınlarından birinə məktub göndər, şikayət yaz, kömək edərlər yəqinki. Dedi, yox, şikayət ediləsi bir ünvanım var, o da özüməm! "Mən, ancaq özümdən özümə şikayət edə bilərəm...".

Yəni, demək istəyirdi ki, problem özünə aiddirsə, ya özün həll elə, ya da şikayətlənmək istəsən, get, dur güzgünün qarşısında, güzgüdə gördüyün o şəxsə nə qədər istəyirsən şikayətlən, ürəyini boşalt!

Bəli, hər kəs özünə aid problemin kökünü bilirsə, həlli yolunu da özü axtarıb tapmağa məhkumdur! Bu həm də sənin nəyə qadir kimliyinin ölçüsüdür!

Yunus bəyin yubiley yaşıdır. Amma əvvəldən dedim, mən onun məhsuldar fəaliyyətini göz önünə gətirəndə deyirəm ki, məncə, onun yüz yaşı var! Ona görə də müdrikliyi ilə gözümdə yüz yaşlı Yunus Oğuzu ürəkdən təbrik edir, ona həmişə özünəgüvənlik arzulayıram.

**Asif Mərzili,**
**yazıçı-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.13.**

***Qədim Oğuzun çağdaş Yunusu! YUNUS OĞUZ – 65***



Təsadüfdənmi, yoxsa ilahi qismətdənmi, bilmirəm, düz 65 il bundan əvvəl Azərbaycanda ilk mətbuatın yarandığı gun, yəni "ƏKİNÇİ" qəzetinin "doğulduğu" gün qədim Oğuz elinin dilbər məkanlarından birində - Şirvan torpağında dünyaya bir oğlan uşağı gəldi. Kim bilir, bəlkə də valideynləri, yaxınları bu körpənin böyüyəndə mühəndis, ya müəllim, ya həkim, ya da hansısa başqa bir peşənin sahibi olacağını xəyal edirdilər. Amma hələ o zaman valideynlərinin, yaxınlarının heç ağıllarına da gəlməzdi ki, bu körpə Azərbaycan ədəbiyyatının ağır yükünü çiyinlərinə götürəcək, xalqının unudulmaqda olan tarixini xalqın özünə, təkcə elmi yazılarla deyil, həm də bədii əsərlər vasitəsilə yenidən qaytarmaqla, tarixi bir missiyaya imza atacaq...

Yunus Oğuzu 1988-ci ilin ortalarından tanıyıram. Qarabağ uğrunda savaşın ilk günlərindən "qələmini süngüyə çevirən" bu gənc qələm adamını tanıdıqca, onun daxilində qədim Oğuz elinin ağrı-acıları ilə yoğrulmuş bir dünyanın hayqırtısını duymamaq mümkün deyildi. Həmin illərdə çoxları kimi Yunus bəy də yazmaqdan çox (zatən istədiklərini yazmağa və yaymağa imkan da verilmirdi-T.N.) canlı ünsiyyətə, Vətən və Azadlıq uğrunda ayağa qalxan insanların mənən zənginləşməsinə yönəlik təbliğata daha böyük üstünlük verirdi. Yunus bəy o həqiqəti bilir və qətiyyətlə əmin idi ki, bir milləti qələbəyə, yenilməzliyə aparan yol milli özünəinamdan, milli özünüdərkdən və milli özünəgüvəncdən keçir. Əsrlər boyu məqsədli şəkildə milləti özündən, keçmişindən ayıran rus şovinizminin ideologiyası ilə "zəhərlənmiş" xalqın şüurunda inqilaba ehtiyac olduğunu dərk edərək də, meydanlarda, küçələrdə Xəlil Rza Ulutürklə, Əbülfəz Elçibəylə, Anarla, Sabir Rüstəmxanlı ilə, Firidun Cəlilovla və digər milli ruhlu ziyalılarla birgə gecə-gündüz həm Bakıda, həm o zaman od içində yanan Qarabağda, həm də qədim Oğuz elinin bir parçası olan Azərbaycanın digər əyalətlərində sadə kütlənin maariflənirilməsində fədakarlıq göstərirdi...

Hələ o illərdə Yunus Oğuzun tez-tez işlətdiyi bir cümləni bu gün də xatırlayıram: "Mübarizəyə gedən yol beyinlərdən başlamalıdır. Əl, qol çəkicdi, onu idarə edən isə beyindir. Beyin istiqaməti düz tutmayanda, çəkic insanın özünə dəydiyi kimi, milli mübarizədə də yanlış istiqamət zərbənin özümüzə dəyməsinə gətirib şıxarar!"

Nə yazıqlar ki, milli hərəkatda olanların heç də hamısı Yunus bəy kimi düşünmürdü. Yunus Oğuz ona görə belə düşünür və belə deyirdi ki, onun mənəvi dünyasında millətinə zərər vuracaq hər hansı bir hərəkətə yer yox idi. Şəxsinə aid olan bütün mənafelərini millət naminə qurban verməyə hazır olanlar, o cümlədən Yunus Oğuz məhz belə düşünürdü və bu gün də belə düşünür. Elə ona görə bütün ömrünü qədim Oğuz dünyasının keçdiyi çeşməkeşli yola işıq salmağa və millətini bu yolu görmək üçün oxumağa, öyrənməyə və öyrətməyə çağırmaqdan usanmadı və usanmır...

Yunus Oğuz haqqında düşünəndə içimdən qeyri-ixtiyari bir sual doğur: bir insan bu qədər zəngin tarixi irsi necə araşdıra, öyrənə, yaddaşına həkk edə, öyrəndiklərini bədii dildə, oxunaqlı bir üslubda insanlara təqdim edə bilər? Türkün ən qədim qatlarına qədər gedib də, əldə etdiyi əvəzolunmaz tarixi inciləri toplayıb bizlərə türk etnosunun tarixini öyrədən bu və digər elmi kitabların müəllifinin "Atilla", "Nadir şah", "Təhmasib şah", "Cığır" və sair kimi mükəmməl bədii-

tarixi romanlarla Oğuz törələrinə keçmişimizi tanıtması, onun daxilindəki milli özünüdərk idealına olan qırılmaz bağlılığın təzahürüdür. Bir vaxtlar siyasi fəaliyyətlə məşğul olarkən rəhbərlik etdiyi partıyanın "Milli Vəhdət" adlanması da, hesab edirəm ki, eyni yolun müxtəlif cığırlarını araşdırması və ən doğrusunu yəqin etməsi istəyindən başqa bir şey deyil. Bilmirəm, çağdaş elmi və bədii ədəbi simalar arasında Yunus Oğuz qədər zəngin və mükəmməl ədəbi irs yaradan ikinci yazar varmı? Mən tanımıram, tanıyan varsa, desin.

Bu günlər Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi ərəfəsindəyik. Onunla birlikdə çağdaş mətbuatımızın - azad, demokratik Azərbaycanda azad mətbuatın inkişafında misilsiz xidmtləri olan Yunus Oğuzun 65 yaşı tamam olur. "Əkinçi"dən 85 il sonra doğulan Yunus Oğuz Müstəqil Azərbaycanın ən uzunömürlü və ən çox oxunan media resursuna - "Olaylar" qəzetinə və eyni adlı informasiya agentliyinə rəhbərlik etməklə qoca "Əkinçi"nin üzünü ağardan nəvələrdən oldu. Üzün hər zaman ağ, başın dik, vüqarın yenilməz olsun, Yunus bəy! Kim bilir 70-80 yaşlarına qədər bu millətə hələ nə qədər töhvələr bəxş edəcəksən!

Hörmətli Yunus bəy!

Əziz dostum!

Qədim Oğuz dünyasının çağdaş Yunusu!

Sizi 65 yaşınız münasibətilə deyil, bu 65 ildə millətinə, xalqına təmənnasız xidmətinziin bəhrəsi olaraq yaratdığınız zəngin ədəbi-bədii və elmi irsin müəllifi olaraq təbrik edir və hələ neçə on illər bu xalqa yeni-yeni elmi və bədii kitablar bəxş etməyinizi arzu edirəm.

**Təhmasib Novruzov,**
**Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri,**
**yazıçı-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.14.**

***Tanrının verdiyi istedad sahibi - YUNUS OĞUZ -65***



Yunus Oğuzu 1993-cü ildən tanıyıram. Bu tanışlığa ümumi dostumuz, Yunuz Oğuzun tələbə yoldaşı, onunla birlikdə Rostov Dövlət Universitetində təhsil almış, mənim də 30 illik dostum Zahir Abdullayev vəsilə olmuşdu. O vaxtlar Yunus Oğuz gənc olmasına baxmayaraq, dövlət qulluğunda yüksək vəzifə sahibi idi- dövlət müşaviri. Bir az sonra biz Yunus Oğuzla ailəvi görüşdük. Bu görüş mənim Yunus Oğuzla ən yaxın təmasım idi... Sonralar müxtəlif dost məclislərində, ədəbi, ictimai-siyasi tədbirlərdə vaxtaşırı görüşür, ünsiyyətimiz daha da intensivləşirdi...Əlaqələrimiz sıxlaşdıqca bir-birimizi daha yaxşı başa düşür, fikirlərimizin üst-üstə düşməsi bizi daha da yaxınlaşdırırdı. İndi əvvəlki dövrlərdən daha çox ünsiyyətdəyik və mən bu ünsiyyətdən bir yaxınlıq, doğmalıq, səmimiyyət duyuram....

Ümumiyyətlə götürdükdə ömrünə-gününə bir dövlət adamı, siyasətçi, publisist və yazıçı qisməti yazılmış, keşməkeşlər və mübarizələrlə dolu bir ömür yaşayan Yunus Oğuz bir vücudda üç əsas fəaliyyəti birləşdirmişdir. Bu xüsusiyyətlərin hər üçü də paralel olaraq yaşanır və ideal formada bir- birini tamamlayır. Sözsüz ki, onun bütün fəaliyyətini bu kiçik yazıya sığışdırmaq mümkün deyil. Yunus Oğuzun həyat və fəaliyyətinin hər bir istiqaməti böyük bir mövzudur və onların hər biri haqqında ayrıca tədqiqatlar, monoqrafiyalar yazmaq lazımdır və bu monoqrafiyalar yazılır.

Yunus Oğuz siyasi fəaliyyətə gənc yaşlarından başlamışdır. 1988-ci ildə Rostov Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirərək mükəmməl fəlsəfə ixtisasına yiyələnən Yunus Oğuz təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının Fəlsəfə və hüquq İnstitutuna göndərilir və burada kiçik elmi işçi vəzifəsində çalışır. Bu həmin dövr idi ki, Azərbaycanın da tərkibində olduğu SSR İttifaqının mənəvi və siyasi, həm də sosial səbəblərdən aşınmış divarları yavaş-yavaş sökülür və çökürdü...Bu çökmələr fonunda müttəfiq respublikalarda xalqların milli oyanışı özünü qabarıq şəkildə göstərir, SSRİ hökuməti və hakimiyyətdə olan Kommunist Partiyası bu oyanışların qarşısını zorla almağa çalışsa da buna müvəffəq ola bilmirdi. Qatar tərpənmişdi və tarixin təkərini geri döndərmək mümkün deyildi.

SSRi-nin o zamankı rəhbəri satqın Mixail Qorbaçovun dəstəyi, Moskvada yaşayan və Qorbaçovun ətrafında yuva salmış erməni ideoloqlarının birbaşa çağırışı ilə keçmiş Dağlıq Qarabağda separatçıların törətdiyi ixtişaşlar nəticəsində Bakıda və bölgələrdə Milli Azadlıq Hərəkatı daha aktiv fazaya keçirdi və bu hərəkata qoşulanların böyük əksəriyyəti gənclər idi. Həmin gənclərin önündə gedən, onlara ideoloji istiqamət verən, yol göstərən gənclərdən biri də Yunus Oğuz idi...

Dövlət müstəqilliyimizin bərpası, müstəqilliyimizin möhkəmləndirilməsi, xalqımızın azadlığının və firavan yaşamasının, ərazi bütövlüyümüzün təmin edilməsi, Azərbaycan dövlətinin beynəlxalq səviyyədə nüfuz sahibinə çevrilməsi, türkçülük, turançılıq Yunus Oğuzun həyat amalı və mübarizəsinin əsas qayəsi idi və o, həyatının sonrakı dövrlərində bütün fəaliyyətini bu müqəddəs işə həsr etdi. Bu mübarizədə o iki taktiki yol seçdi. Publisistika və yaradıcılıq.

Yunus Oğuz hələ Fəlsəfə və Hüquq İnstitutunda işləyərkən 1989- 1991-ci illərdə "Azad söz" qəzetinin, həmçinin Xüsusi bulletenlərin qeyri-leqal nəşrinə rəhbərlik edib və 1991-1992-ci illərdə "Ordu"qəzetinin baş redaktoru vəzifəsində çalışırıb. 1995-ci ildən isə "Olaylar" İnformasiya Agentliyinin baş direktoru və eyniadlı qəzetin baş redaktoru vəzifəsində çalışır.

Mətbuat, publisistika həm də Yunus Oğuzun tale yazısı imiş. Bu il ölkəmiz Azərbaycan mətbuatının yaranmasının 150 illiyini qeyd edir. Həm də ölkəmizin mətbu ictimaiyyəti "Olaylar"ın 30 illik yubileyini qeyd edir. 22 iyul Azərbaycan mətbuatının yaranma günüdür, eyni zamanda Yunus Oğuz 22 iyulda dünyaya gəlib. Üstəlik həmin gün Yunus Oğuz həm də 65 illik yubileyini qeyd edəcək. Sadaladığım bu qədər əlamətdar tarixi günlərin Yunus Oğuzun tale göstəricisi olduğu təsadüfdür, yoxsa zərurət? Bunu hər halda bir filosof kim Yunus Oğuz daha aydın izah edə bilər. Ancaq görünür bu tarixi rəqəmlərdə də bir mistika var.

Bu yaxınlarda Azərbaycan Mətbuat Şurasında "Olaylar"n 30 illik tədbirinə mən də dəvət almışdım. Tədbirdə ölkəmizin görkəmli elm, mətbuat və ədəbiyyat adamları iştirak edirdi. Tədbir boyu iştirakçılar çıxış etdikcə məni sevinc qarışıq təəccüb bürüyürdü. Çağdaş mətbuatımızın öncül nümayəndələri, media kapitanları, mətbuatımızın aparıcı simalarının, görkəmli jurnalistlərin böyük bir dəstəsi sən demə öz fəaliyyətlərini Yunus Oğuzun yaratdığı və 30 il rəhbərlik etdiyi "Olaylar"dan başlamışlar. Deməli Yunus Oğuz təkcə qəzet yaratmayıb, həm də məktəb yaradıb və ölkəmizin jurnalistlər ordusunun xeyli hissəsi "Olaylar" məktəbini keçib. Yunus Oğuzun nüfuzlu bir informasiya agentliyinin rəhbəri olaraq haqqında çox dəyərli sözlər deyilib, lakin mənim ən xoşuma gələn fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini hörmətli Natiq Məmmədlinin ifadəsindən eşitdim : "Olaylar"ın ənənə yaratmış başqa qəzetlərdən fərqli xüsusiyyəti ondan ibarətdir ki, "Olaylar" bir fikir məktəbidir. "Olaylar" həm də bir ədəbi məktəbdir. Onun başında dayanan, rəhbərlik edən şəxsiyyətin öz keyfiyyəti, xarakteri, yaradıcılıq tərzi yaratdığı qəzetdə özünü ifadə edib. Bir yazıçı kimi Yunus Oğuzun məqsədi Azərbaycan türk kimlik yaddaşını diri saxlamaqdan ibarətdir. "Olaylar" da bizim mətbu yaddaşımızdır". Məncə şərhə ehtiyac yoxdur.

Yunus Oğuzun fəaliyyətinin 3-cü hissəsini, vaxtının və düşüncəsinin əhəmiyyətli hissəsini bədii yaradıcılıq təşkil edir. Ümumiyyətlə, yaradıcılıq Yunus Oğuzun stixiyasıdır. O, publisistikasında da, nəsrində də, dramaturgiyasında da yaradıcı bir şəxs olaraq çıxış edir. Nə qədər mübahisəli də olsa mən jurnalistikanı da yaradıcılıq hesab edirəm. Və bu mənada Yunus Oğuzu həm jurnalist, həm də yazıçı və nasir kimi hərtərəfli yaradıcı bir şəxs hesab edirəm. Belə düşünürəm ki, onun publisistikasında bir bədiilik, nəsr əsərlərində və pyeslərində publisistika var. Bəlkə də dediyim bu fikir mübahisə doğurar. Ancaq mənim qənaətim belədir.

Heç şübhəsiz ədəbiyyat tariximizdə Yunus Oğuz cox ciddi və maraqlı publisistikası, dramaturgiyası ilə yanaşı məşhur bir romançı- tarixi romanlar müəllifi kimi qalacaq. Azərbaycan ədəbiyyatı tarixində tarixi roman yazan müəlliflərimiz kifayət qədər olmuşdur və bu gün də bu ədəbi proses davam edir. Bununla belə Yunus Oğuz qədər məhsuldar tarixi roman yazan ikinci bir müəllif yadıma gəlmir. Hər kəs bilir ki, bu səpkili əsər yazmaq müəllifdən istedad qarışıq, həm də müraciət etdiyi tarixi dövr və hadisələr barədə zəngin bilik və informasiya tələb edir. Onun tariximizi dərindən bilməsi, ictimai özünüdərk, vətənpərvərlik, vətəndaşlıq mövqeyi, Azərbaycan dövlətçiliyinin müxtəlif mərhələlərində keçdiyimiz çətin və şərəfli yolu, həm də səhvlərimizi öz əsərlərində əks etdirən və tarixdən ibrət götürmək üçün bir çağırış edən Yunus Oğuzun tarixi mövzulara müraciət etməsinin əsas səbəbləridir, Bu istək həm də onun vətəndaşlıq, dövlətçilik,

milliyyətçilik mövqeyindən irəli gəlr. Qeyd etdiyim kimi Yunus Oğuz çox məhsuldar bir yazıçıdır. Onun tarixi roman və pyeslərinin adları saymaqla bitmir və bu əsərlər oxunur, sevilir, təkrar-təkrar nəşr edilir, dərsliklərə salınır, dərsdənkənar oxu ədəbiyyatı kimi istifadə olunur, tərcümə edilir, xarici ölkələrdə təqdimatı keçirilir, haqqında araşdırmalar aparılır, tamaşaya qoyulur, həmin əsərlər əsasında ssenarilər yazılır, istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda müxtəlif çoxsaylı mükafatlar, ödüllər alır. Əsərləri Nyu-Yorkda, Londonda, Moskvada, İstanbulda, Kiyevdə, Daşkənddə, Almaatıda, Bişkekdə və başqa şəhərlərdə nəşr edilib. Bütövlükdə 30 -a yaxın ölkədə 50-dən çox kitabı nəşr edilib. Kitabları haqqında üç monoqrafiya yazılıb. Əsərlərinin xarici dillərə tərcümə olunaraq nəşr edilməsi dövlətimizin və xalqımızın tarixinin və dəyərlərinin dünyada tanıdılmasında, təbliğində mühüm rol oynayır və bütün bunlar Yunus Oğuzun xalqına vətəninə, dövlətinə xidmət nümunəsidir.

Yunus Oğuzun 44 günlük Vətən müharibəsi və qələbəmizə həsr olunmuş "Cığır" romanı bu mövzuda son illər yaradılmış ən dəyərli əsərlər sırasındadır. O, "Cığır"ı qibtə ediləcək bir sürətlə yazdı. Ümumiyyətlə, sürətli yazı Yunus Oğuz yaradıcılığı üçün xasdır ki, bu da onun yaradıcılıq stixiyasından irəli gəlir. Sanki, mövzu onun içində illərlə yuva salır və kiçicik bir qığılcım lazımdır ki, mövzu müəlifin içindən vulkan kimi püskürsün. Yunus Oğuz əsərlərində tarixi paralellər apramaqla, həm də bu prosesləri bir-biri ilə sıx bağlayır. Əsər boyu tarixi dərinliklərə vararaq oxucuya haşiyələrlə daha maraqlı məlumatlar verir. Onun tarixi romanlarının adlarına, əsərdə nəql olunan hadisələrə və bu əsərlərin baş qəhrəmanlarına diqqət yetirsək görərik ki, bu əsərlər tarixin müxtəlif dönəmlərində fəaliyyət göstərmiş türk dünyasının hökmdarlarına, sərkərdələrinə, dövlət xadimlərinə və onların iştirakı ilə cərəyan edən hadisələrə həsr olunmuşdur ki, burda da müəllifin əsas məqsədi "Azərbaycan türk kimlik yaddaşını diri saxlamaqdan"və tarixdən ibrət götürməkdən ibarətdir.

Son vaxtlar "Olaylar" qəzetinin səhfələrində dərc olunan parçalardan aydın olur ki, Yunus Öğuz "Türk etnonimləri və törələri" adlanan daha bir qiymətli əsər üzərində işləyir və hiss olunur ki, bu əsər türklük və türkçülük elminə daha bir qiymətli və sanballı töhvə olmaqla onu daha da zənginləşirəcək.

Yunus Oğuzun şəxsiyyəti də yaradıcılığıl və fəaliyyəti kimi bütövdür.Tanrının verdiyi istedad, zəngin tarixi bilgi, fəlsəfi düşüncə, zəhmətsevərlik, sürətli və məhsuldar yaradıcılıq, təvazökarlıq və sadəlik, dövlətçilik, milliyətçilik, türklük və türkçülük, turançılıq onun yaradıcılığı üçün xarakterikdirsə, peşəkarlıq, operativlik, yenilik, qərəzsizlik, vətənpərvərlik, vətəndaşlıq onun publisistikası üçün xarakterikdir və o, şəxsi keyfiyyətləri ilə də yaradıcılığını tamamlayır. Bütün istedadı və möhtəşəm yaradıcılığı ilə həm də son dərəcə təvazökar, təkəbbürdən uzaq, sadə, səmimi, hay-küydən kənar, dövlətinə, xalqına, vətəninə, dostluğa sədaqət nümunəsi, mövqeyinə görə həm özünə, həm də qarşı tərəfə münasibətini dəyişməyən bir şəxsiyyətdir.

Yunus bəy bu günlər 65 illik yubileyini qeyd edərək yaşının müdriklik çağına qədəm qoyur. Onsuz da müdrik olan Yunus bəyi səmimiyyətlə təbrik edir, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırm.

**Ramiz Göyüş,**
**yazıçı-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.15.**

***Ziyalı formulu: YUNUS OĞUZ -65***



İstedad-zəhmət-vətənpərvərlik üçbucağı dəyərli vətəndaşın həndəsi formasıdır.

Belə dəyərli azərbaycanlılırdan biri də Yunus Oguzdur.

Məkanın və zamanın elə nöqtələrində ömür budaqları vardır ki, bilmirsən siyasətçidir, ictimai xadimdir, alimdir, filosofdur, yazıçıdır...

Onun fəaliyyəti binar məntiqlə izah edilə bilmir, birlə iki araslnda çoxlu aralıqlar olduğu kimi, onun da fəaliyyət spektirləri çoxdur.

Amma bu rəngarəngliklər birləşəndə ağ işıq- həqiqi ziyalı, vətəndaş- Yunus Oğuz olur.

Təbrik edirik. Uzun və sağlam ömür arzulayırıq.

**Sadiq Qarayev,**
**yazıçı**

***Tarixin borclu olduğu adam - Yunus Oğuzun 65 yaşına***




Salam olsun, çox dəyərli oxucum! Budəfəki qəhrəmanımız bütün Türk dünyasının, Oğuz elinin bir əlində qılınc, bir əlində qələm sözün, kitabın, ədəbiyyatın, mədəniyyətin, tarixin, milli kimliyin keşiyində mərdi-mərdanə dayanmış hünərvər alim oğlu Yunus Oğuzdur.

Yunus Oğuzun özü oldu-olmadı mən bu barədə dəfələrlə müxtəlif tədbirlərdə də demişəm. Yeri gəldikcə deyirəm və deyəcəm. Əsasən gənclərin üstünlük təşkil etdiyi tədbirlərdə bu məsələyə mütləq toxunur və Yunus Oğuz kimi ziyalılardan misal çəkir, belə insanlarımızı nümunə göstərirəm.

Yunus Oğuz sağlığında öz əməllərilə "Gündoğandan Günbatana" dediyimiz böyük türk dünyasının mənəvi aləmində sözdən-kitabdan ayağı bozqın bilinməyən təkində, başı isə sonsuz səmanın mavi ənginliklərində itib-batan nəhəng heykəlini ucaltmış çox azsayl müasirlərimizdən biridir.

Mən Yunus Oğuz imzasını tarix dərsliklərinin demək olar ki, olmadığı bir dövrdə tarixi romanlar müəllifi kimi tanımışam. Əgər belə demək mümkünsə - doğru olarsa, tarixi onun yazdıqlarından öyrənmiş bir nəslin nümayəndəsi kimi, Yunus Oğuzu böyük əminliklə tarixin ona borclu olduğu adam adlandırardım. Hələ çox əvvəllər özlüyümdə onun yazdıqlarını Yevgeni Tarlenin "Napoleon"u, Vasili Yanın "Çingiz xan", "Kurqanlardan gələn işıq" kimi möhtəşəm əsərləri ilə müqayisə etmiş və həmişə bir baş yuxarı bilmişəm.

Yunus Oğuzun yaradıcılığı və bir müasiri olaraq bütün gündəlik fəaliyyəti ilə tanış olarkən qeyri-ixtiyari Timuçinin (Çingiz xanın) ovcunun içində qançırla doğulması əhvalatını, digər buna oxşar ayrı-ayrı şəxslərin dünyadakı müssiyaları ilə bağlı işarətləri xatırlamaya bilmirsən. Bir var tarix yazmaq, bir də var tarix yaratmaq. Yunus Oğuz tarix yaradanlardandır. Onun missiyası bundan ibarətdir. Bütün yaradılmışlar kimi tarix də ona borcludur.

22 iyulda Yunus Oğuzun 65 yaşı tamam olur. Bu münasibətlə yazarlar cameəsi adından onu təbrik edir, qarşıdakı bütün həyat və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq!

**Zaur Ustac,**
**şair-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.14.**

***Qutsal yolun böyük oğlu... YUNUS OĞUZ -65***



Tanışlığımız ötən əsrin səksəninci illərin sonu, 90-cı illərin əvvəllərindən başlayır. Xalq hərəkatının qızğın vaxtları idi. Qutsal amalların eyforiyasını yaşayırdıq. Beynəlxalq aləmdə Azərbaycan dünyanın vətənpərvər xalqı elan olunmuşdu. Həmin dövrdə sovet imperiyasının çöküşünə obyektiv və subyektiv baxışlar mövcud idi. Onun isə, uzaqgörənliklə söylədikləri çoxlarına sanki utopiya kimi görünürdü. Yığıncaqlarda bu çöküşün tariixi zərurət olduğunu təhlilləri ilə əsaslandırmağa çalışırdı. Azadlıq uğrunda mübarizəyə bütöv türk dünyası açısından baxmağı doğru yol hesab edirdi. Bu qutsal yolda ulus adına böyük çalışmalarda bulundu. Tariximizə ayna tutan tarixi romanları ilə təkcə ölkəmizdə deyil, bütün türk dünyasında tanındı, sevildi. Əsərlərini oxuduqca açıq-aşkar hiss olunurdu ki, müəllif türk dünyasının birlik və bərabərliyinin Qarabağın azadlığından keçdiyinə varlığı kimi inanır. Elə bu inamla da, "Cığır"a düşüb Şuşaya doğru irəlilədi, "Şuşadan yazıram" dedi. Şuşadan alnıaçıq dönən nasir hazırda "Türk" etnonimi və törələri" başına cəm eləyib, "soy soylayır, boy boylayır", oğuzların tarixini, dəyərlərini, inanclarını, həyat tərzini əks etdirən mədəni irsini aramaqla sabahımıza ayna tutur. Canı-qanı, ruhu ilə Oğuz yurdunun türk oğlu, mətin oğlu kimi qürur duyan Yunus Oğuzun bu il 65 illik yubileyidir. Əziz və dəyərli qardaşımı yubileyi münasibəti ilə təbrik edərək, sağlam canla uzun ömür, yaradıcılıq uğurları diləyirəm.

Yunus Oğuz, illər ötür,
Gələn yaşdı yaş üstünə.
Dostlarını yenə götür,
Göz üstünə, qaş üstünə.
"Altmış beş"i "yüz" oxşasın,
Ocağını köz oxşasın.
Şanlı bayraq göz oxşasın,
Qaldır yenə baş üsünə.
Ulus üçün ərənləri,
Tanıtdırdın Nuhdan bəri.
İstəmirəm dərdi-səri,
Götürməsən kaş, üstünə.
Oğuz yurdun, Oğuz elin,
Dayanmasın verən əlin.
Çoxdu qoyan zərin-ləlin
Daş altına-daş üstünə.
Ulusundur, ey Türkoğlu,
Bu "Cığır"ın sağı-solu.
Qutladıq ki, hər iyulu,
İllər gələ xoş, üstünə!

**İlqar Türkoğlu,**
**şair**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.16.**

***Yunus peyğəmbərdən sonra üçüncü Yunus…***

***Yunus Oğuz - 65***



"- Qədeş, nə yaxşı şlyapan var?

– Yeri ala, sən yaxşı adam deyilsən.

– Hə, ürəyini yemə, iki manatını verəcəm də…

– Yekə oğlansan ala, mən pul adı çəkdim? İstəyirsən iki manat da verim. İş pulda deyil e, iş "vinimatelni" olmaqdadır. Adamlar gərək bir-birinə "vinimatelni" olsunlar. Sən mənə "vinimatelni" olarsan, mən də sənə…

– Davud, bir şeyi başa düşə bilmirəm, bu danışıq nəyə lazımdır?

– Ala, sən mənim dostumsan? Hə! Harda işləyirsən- ət kombinatında. Bir dəfə də olsun gəlib demisən ki- Davud, sənə kolbasa, sosiska gətirmişəm, al, vur bədənə…"

Söhbətimə nahaq yerə məşhur "Uşaqlığın son gecəsi" filmindəki Davudla Muradın dialoqundan başlamadım. Çünki bu dəfə sizə Davudun sözü olmasın, "vinimatelni" adamlardan birindən söhbət açmaq istəyirəm. Amma söhbətimə onun xarakter xüsusiyyətlərindən başlayacam: Ağıllı, ahəngdar, praktik, cəlbedici, təşəbbüskeş, səmimi, fədakar, qənaətcil, sosial insandır. Yüksək sosial uyğunlaşma qabiliyyətinə malikdir və cəmiyyətin bütün səviyyələrinə uyğunlaşır. Uğurlu adamdır, yenilməz gücə sahib olmaq arzusundadır. Necə deyərlər, həyatda öz istəklərinin fərqində olan və həmişə daha yaxşı olmağı hədəfləyən birisidir. Və adətən qarşısına qoyduğu məqsədlərə çatır. İş həyatındakı fədakarlığı, ağıllı və ayıq rəftarı, bir çox insandan daha bacarıqlı olması onu məqsədlərinə asanlıqla çatdırır…

Müsahibələrindən birində deyir ki:- "Məndə qeyri-adi bacarıq var, amma bunu açıqlasam hamı üstümə tökülər. Tarixi roman yazılarkən bədii təxəyyülə çox cüzi yer ayrılır. Birincisi, əsərin yazılma məqsədi olmalıdır. İlk olaraq bunu aydınlaşdırmaq lazımdır. Niyə görə bu tarixi mövzuya müraciət olunur? İkincisi, xronoloji ardıcıllığın gözlənilməsidir. Şəxsiyyətə, dövrün hadisələrinə münaqişələrə, mübarizələrə müraciət olunarkən xronoloji ardıcıllıq o qədər mükəmməl olmalıdır ki, tarixin təhrif olunmasına tənqidçilər heç bir arqument tapa bilməsinlər. Əksinə, desinlər ki, hətta bizim bilmədiyimiz faktlar da əsərdə xronoloji ardıcıllıqla göstərilib. Əgər bunlar olmayacaqsa, tarixi roman yazmağa dəyməz…"

Hər şeydə lider olmağı xoşlayır və ətrafındakıları idarə etməyi bacarır. Həm zehni, həm də fiziki olaraq daim axtarışdadır. Yeni şeylər öyrənməyə və özünü təkmilləşdirməyə çalışır. Çox iti ağıllıdır. Səyahət etməyi sevir və gördüyü hər yeri və obyekti əzbərləyir. Sevdiyi insanlarla vaxt keçirməkdən və onları xoşbəxt edəcək kiçik sürprizlər etməkdən xoşlanır. Onun danışa biləcəyi və qarşı tərəfin dinləyəcəyi çoxlu xatirələri var. Sadiq, ünsiyyətcil, bacarıqlı və cazibədar şəxsdir. Heç vaxt tək qalmaq istəmir və həmişə izdihamlı yerlərdə olmağı üstün tutur. Ağayana davranışı ilə insanların könlünü fəth edə bilir…

"Romanın məqsədi, məramı, ideyası öz yerində. Digər cəhət də odur ki, romanı müəllif hansı dildə yazır. Mən xarici dilləri nəzərdə tutmuram. Burda ədəbi-bədii dildən söhbət gedir. Bir var

ki, dil çox çətin olur, bir-iki səhifə oxuyursan sonra oxumaq istəmirsən. Amma bir də görürsən ki, dil o qədər şirin olur ki, oxuduqca səni özünə çəkir və istəyirsən ki, axıracan oxuyub qurtarasan. Bu amil də əsasdır. Elə yazıçılar var ki, kifayət qədər sanballı yazır, ancaq dili ağır olduğu üçün cəmiyyət tərəfindən qəbul olunmur. Çox zaman mənə müraciət edirlər ki, orta əsrlər dövründən yazdığım romanda niyə o dövrün sözlükləri yoxdur? Mən o dövrün sözlərindən heç birini işlətmirəm. Mənə bunu deyəndə bildirirəm ki, olmaz! Soruşurlar niyə? Deyirəm ki, mən XV əsrin insanları üçün yazmıram ki! Mən müasir insanlar üçün başa düşülən dildə yazıram. XV əsrin sözlüklərini yazsam gərək onun açıqlamasını da verəm. Açıqlamanı da verəndə, oxucularda yoruculuq yaradır. Müasir variantda niyə verilməsin ki?! Mənim bildiyimə görə, bəzi yazıçılar öz əsərlərinin ikinci nəşrində qaranlıq sözlərdən imtina edərək, onları yeni variantları ilə əvəzləyirlər. Mən də hiss edirəm ki, getdiyim yol daha oxunaqlıdır."- söyləyir.

Soyuqqanlı münasibəti onun əslində bir müddət alışıb-yanan duyğularını gizlətdiyini göstərir. Yeyib içməyi, mədəni əylənməyi xoşlayır. Əgər qayğı göstərdiyi insanlardan gözlənilməz bir zərbə alırsa, çox yorulur. İncə yumor hissinə malik və mərhəməti ilə seçilən dost tipidir. Hər bir mövzuda danışmağı bacarır. Münasibətlərində sadiq və etibarlıdır. Bir sözlə, şən və gözəl sosial rəftarı ilə dostları arasında həmişə seçilir və bəyənilir. Sufizmin vurğunudur, xarakterində bir şamanlıq var…

Deyir ki:- "Sufizmin kökü şamanlıqdan gəlir. Orda Tanrı qəbulu var və bu çox normal bir şeydir. "Əmir Teymur" və "Şah arvadı və cadugər" romanlarını yazanda şaman rəqslərini öyrənmək üçün Yakutiyaya getmişdim. Bu çox normal bir şeydir. Mən Tyan-şana Tanrı dağına da gedirəm. Bunu internetdən də öyrənə bilərdim. Bir də var ki, reallığı, həqiqəti öz gözlərinlə canlı-canlı görürsən. Məhz bu zaman ordan aldığın enerjini ürəyində, başında gəzdirə bilirsən. Bu zaman daha effektli əsər yazmaq olar. Sevgimiz sufizmə, şamanizmə çox böyükdür. Bunlar birbaşa Tanrının verdiyi elmlərdi ki, hər kəsdə olmur…"

Evində yaratdığı rahatlıq və geniş mühit onun üçün hər şeydən önəmlidir. O, məişət xarakteri ilə diqqət çəkir və ailəyə önəm verir. Fərqli əşyalarla maraqlandığı üçün evində antik əşyalarla yanaşı, heyrətamiz dərəcədə dəbdəbəli və bahalı əşyalara da rast gələ bilərsiniz. Özünü təkmilləşdirməyi və hər zaman bir addım irəli getməyi hədəfləyir. Ona rəqib olmaq mümkün deyil. Fəal və aktiv insandır. İlk baxışdan çox ciddi görünə bilər, lakin onun qürurlu görünüşünün altında sürprizlərlə dolu bir xəzinə və tez düşünən zəka yatır…

Haqqında danışdığım yazıçı, jurnalist Yunus Oğuz 1960-cı ilin iyul ayının 22-də Şirvan şəhərində anadan olub. 1977-ci ildə orta məktəbi bitirdikdən sonra bir il Şirvan DRES-də fəhlə işləyib. Daha sonra Bakı şəhəri 6 nömrəli texniki peşə məktəbində təhsil alib. Ardınca iki il əsgəri xidmətdə olub. Üç ilə yaxın Şirvan şəhər pambıq təmizləmə zavodunda mülku müdafiə qərargahının rəisi vəzifəsində çalısıb. Həmin müddətdə ictimai əsaslarla zavodun komsomol təşkilat katibi secilib. 1983-cü ildə Rostov Dövlət Universitetinə daxil olub və 1988-ci ildə RDU-nun fəlsəfə fakültəsini bitirərək filosof ixtisasina yiyələnib. Ali təhsilini bitirdikdən sonra təyinatla AMEA-nın Fəlsəfə və hüquq institutuna göndərilib və burada bir müddət kiçik elmi işçi vəzifəsində işləyib. 1988-ci ildə Milli Azadlıq hərəkatına qoşularaq, hərəkatın aktiv üzvlərindən biri olub. 1990-cı ilin yanvarında akademiyanın bir qrup gənc alimi ilə birlikdə Xalq Azadliq Partiyasının (XAP) yaradıb və onun sədri seçilib. 1992-ci ildə AXC sədrinin müavini təyin olunub. 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin müşaviri təyin edilib. 1994-cü ildə Azərbaycan Xalq Cəbhəsini tərk edərək, Azərbaycan Bütövlüyü Uğrunda Cəmiyyəti və eyni adlı partiyanı təsis edib və partiyanın sədri olub. 1997-ci ildə onun təşəbbüsü ilə ABUP və XAP

birləşərək, Xalq Azadlıq Partiyası yaradılıb və sədrlik ona həvalə edilib. 1998-ci ildə isə XAP bölünəndə Yunus Oğuz və tərəfdarları partiyanın Vəhdət Partiyasına birləşdiyini elan ediblər və orada sədrinin birinci müavini seçilib. Çox keçmədən bu partiya da bölünüb və Yunus Oğuzun rəhbərliyi altında Milli Vəhdət Partiyası yaradıldığı elan edilib. Nəhayət, 2023-cü ildə Milli Vəhdət Partiyası da fəaliyyətini dayandırıb. Bütün bunlardan əlavə o, xeyli müddətdir ki, həm də jurnalistika ilə məşğul olur. Fəlsəfə və hüquq institutunda kiçik elmi işçi işləməklə yanaşı, 1989-cu ildən 1991-ci ilədək "Azad söz" qəzetinin, həmçinin "Xüsusi bulleten"lərin qeyri-leqal nəşrinə rəhbərlik edib. 1991-1992-ci illərdə "Ordu" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. 1995-ci ildən bu günə qədər "Olaylar" İnformasiya agentliyinin baş direktoru və eyni adlı qəzetin baş redaktoru vəzifəsində çalışır. "Tərəqqi" medallı "Əməkdar mədəniyyət işçisi"-dir…

Bəli, tarixi roman yazmaq asan məsələ deyil. Bunun üçün yazıçıdan üç keyfiyyət tələb olunur- dərin zəka, ciddi araşdırma qabiliyyəti, düzgün dəyərləndirmə bacarığı. Qalanı rəngdir. Həmkarları keçmişdən yazıb, bu günə təqdim edir. Onun əsərləri isə gələcəkdə daha çox oxunacaq, daha çox tanınacaq. Doğrudur, söylədikləri, yazdıqları Quran ayəsi olmasa da, haqqı arxasıyca çəkən kəlmələrdir. Düşünür və düşündürməyi də bacarır- müdrik adamdır və bu millətin qənimət övladlarından biridir. Adında mistika var, bu sehr onu əbədi yaşadacaq- Yunus peyğəmbərdən və Yunus İmrədən sonra yadda qalacaq üçüncü Yunus olacaq. "Oğuz" kəlməsi isə fərqlənməsi üçündür…

İyulun 22-si Yunus Oğuzun 65 yaşı tamam olur. Ona möhkəm can sağlığı, yaradıcılıq uğurları arzulayıram…

"…Adamlar gərək bir-birinə "vinimatelni" olsunlar. Sən mənə "vinimatelni" olarsan, mən də sənə…"

**Elman Eldaroğlu,**
**şair-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.14.**

***Ulusal yaddaşın gözətçisi - Dr. Yunus Oğuz - 65***



Zaman öz hökmünü yürüdür: unudulacaq olanı silir, qalacaq olanı yazır. Tarix isə o zamandır ki, unudulacaq olanı unutmaz, qalacaq olanı isə bəzən görməz. Bu paradoksun içində insan çıxır ortaya - həm zamana, həm tarixə səslənir. Həm dünəni qoruyur, həm bugünü yazır, həm də sabaha söz ismarlayır. Türk dünyasının, Qafqazların, can Azərbaycanın belə miqyas, səciyyə və səviyyə nümayiş etdirən aydınları olub, bugün də var, gələcəkdə də olacağına inamımız sabitdir. Bu gün həmin kateqoridən olan çağdaş aydınlarımızdan biri haqqında söz açmaq istəyirəm. Jurnalistikamızın, tarixi romançılığımızın, ümumən ictimai fikrimizin (necə deyərlər) çağdaş yaddaş mühəndislərindən biri, (belə demək mümkünsə) kulturoloji keçidlərdə keşik çəkən ruhi güc ustalarından olan Dr. Yunus Oğuzu nəzərdə tuturam. Yunus bəy ömrünün 65-ci addamacından keçmək ərəfəsindədir. Yunus bəy builki yubileyini respublikamızın ərazi bütövlüyü və suverenliyinin təmini yolunda tarixi Zəfərimizin 5-ci ildönümünün qeyd olunacağı, "Konstitusiya və Suverenlik İli"ndə keçirmək bəxtəvərliyini yaşayır. Onun 65 illik yubileyi milli mətbuatımızın 150 illik əlamətdar yubileyi ilə üst-üstə düşür. Nə gözəl təvafüqlüklərdir! Qutlu olsun!

Yunus Oğuz - publisist kimi indiki zamanın üzərinə işıq salır, roman müəllifi kimi oxucunu keçmişin labirintlərində uhulət-suhulətlə gəzdirir. Bu iki görəvin yükümlüsü olmaq - sanki iki qütbdə ulusal varlığın sözlə qorunması aktı, faktıdır.

Sözün arxasında fikir, fikrin arxasında sorumluluq duranda bir başqa cür olur.

Yunus Oğuz adının yanıbaşında bir brend də var: "Olaylar"!

"Olaylar" təkcə bir agentlik, yaxud qəzet deyil; o, vaxtın ürək döyüntülərini duyan, duyduran və onu toplumla bölüşən bir ulusal platforumdur. "Olaylar"ın qurucu-Baş redaktoru Dr. Yunus Oğuz - mətbuatı yalnız informasiya ötürücüsü kimi deyil, ulusun düşüncə ehtiyacını qarşılayan bir institut kimi görür. Mənə elə gəlir, o, mətbuatı öz varlığı qədər ciddiyə alıb. Bu, təsadüfi deyil. Çünki onun mətbuatdakı varlığı, bir növ ümumtürk yaddaşının informasiya ilə təmas xəttinə çevrilib.

Ustadlar ustadı Əhməd bəy Ağaoğlu ulusu maarifləndirməyin əsas yolunu qəzet və jurnallarda görür və milli mətbuatı milli varlığın əksi sayırdısa, XX yüzil sonu-XXl yüzil başlarında Yunus Oğuz kimi aydınlarımız o fikri irsi davam və inkişaf etdirmə yolunu izləyirdi. - "Olaylar" həmin izlənimin, duyğu, düşüncə və fikrin təcallalarından biriydi. "Olaylar", ümumən Yunus bəyin yazıb-yaratdıqlarının toplusu müstəqillik illərimizin vicdanı kimi yorumu haqq edir deyənləri haqqlı sayıram.

Yaddaşla təkbətək

Yunus Oğuzun romanları - özəlliklə "Çingiz Xan",

"Sultan Alparslan", "Atabəy Eldəniz", "Əmir Teymur. Zirvəyə doğru", "Əmir Teymur. Dünyanın hakimi",

"Təhmasib Şah", "Səfəvi Şeyxi", "Nadir Şah" və digərləri - sadəcə tarixi hadisələri bədii dillə yorumlamır. - Onlar itirilmiş yaddaşı geri qaytarmaq üçün ideoloji xəritə dəyərindədir. Hər bir obraz, hər bir süjet xətti bir ismarıc daşıyır: "Unutma! Xatırla! Özün ol"!

Əlbəttə, "Ovçu", "Cığır" kimi əsərlərlə - günümüzün hadisələrini tarixi roman fəzasına qaldıran da Yunus Oğuz oldu. Necə ki "Qədim Anadolu və Azərbaycan türkləri" (2002), "Türkün tarixinə yeni bir baxış" (2006), "Türkün gizli tarixi" (2010), "Qədim Türklər və passionarlıq nəzəriyyəsi Qumilyovun tədqiqatlarında" (2011) və b. elmi-publisistik əsərlərdə də Yunus Oğuz imzası vardır. Turançı ruh - onda ülkü ilə yanaşı, möhkəm mövqe məsələsidir.

"Keçmişdən gələcəyə nə daşıyırıq? - Tarix ibrətdir" fəlsəfi-tarixi-publisist düşüncələr, "Deyirəm oyan, gözünü aç, ayağa dur! İstəmir" felyetonlar, "Mən Şuşada yazıram" esselər toplanmış kitablar da haqq etdikləri masada, rəfdə və internet resurslarında...

Onun tarixi romanları, əslində, bir ulusun psixoloji zədələrinə və kimlik parçalanmalarına qarşı direniş manifestidir. Bu romanlarda qəhrəmanlarla yanaşı, yaddaşın özü qəhrəmana çevrilir. Belə bir fikir var ki, Yunus Oğuz tarixə ideoloji bərpaçı kimi deyil, mənəvi xilaskar kimi yanaşır - keçmişə qayıdaraq gələcəyi qoruyur... - Bu qənaətə şərikəm.

Bəli,

Yunus Oğuz üçün Turan ideyası romantik duyğu deyil. O, Turanı tarixi gerçəkliklərlə, mədəni yaddaşa və siyasi sorumluluğa dayanan bir çağırış kimi ortaya qoyur. Əgər Turan onun romanlarında daha çox irs kimi görünürsə, publisistikasında bu, geosiyasi mövqe kimi formalaşır.

Biz bəzən "aydın" sözünü çox asan işlədirik. Dr. Yunus Oğuzun timsalında bu söz yeni anlam qazanır. O, aydınlığı kabinetdən küçəyə, tribunadan roman səhifələrinə, qəzet başlıqlarından ulusal ruha daşımağı bacaran insandır. Onun çalışmaları - fikrin etirazla, sorumluluğun isə göstərişsiz qürurla müşayiət edildiyi bir ömürdür.

Bəs yubiley necə? - Yubiley - aydınlar üçün yaşın yuvarlaq tamamlanması ilə birgə, bir yolun bəşəriləşməsi, ruhi gücün topluma nüfuzetməsidir (ictimai şüura hopmasıdır). Yunus Oğuz - bu ruhi gücün daşıyıcısı, ulu sözün gözətçisidir.

Biz də bu yazı üzrə, sözümüzün sonuna yetişmişkən,

65 yaşı, sadəcə bir təqvim göstəricisi kimi görmədiyimizi deməliyəm. Bu yaş - ulusun düşüncə və yaddaş tarixinin çağdaş dönəmində bir iz, bir cığır, bir yol, bir imza dəyərində səciyyəlidir. Bu gün bu yazıda bu Yunus Oğuz imzasıdır. Həm ulusal, həm mədəni, həm ictimai xadim imzası!

Qutlu olsun!

**Əkbər Qoşalı,**
**şair-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.12.**

***Yunus Oğuz sözün həqiqi mənasında, üz tutulası, qapısı döyüləsi bir ziyalıdır...***



Tam gənclik illərindən tanımışam Yunus Oğuzu, Milli hərəkat, azadlıq mübarizəsinə qatıldığımız anlardan. Əlbəttə ki, bu tanışlıq o dövrlərdə uzaqdan uzağa, hərəkat dövrünə təsadüf edirdi. Şəxsi tanışlığımız yox idi.

Daha sonralar onun jurnalistlik fəaliyyəti, yazıçılığı, vətənpərvərliyi, haqqında eşitdiyim və müşahidə etdiyim digər xüsusiyyətləri, Yunus Oğuzu şəxsən tanıdıqdan sonra ona dost, ustad deyərək müraciət etməyimə əsas verdi. O, sözün həqiqi mənasında, dost deyərək üz tutulası, qapısı döyüləsi bir ziyalıdır, insandır.

Yadımdan çıxmaz, 2003-cü ildə "Yeni Xəbər" qəzetini yenicə təsis edib, dərc edirdik. Baş redaktor olaraq Yunus bəylə görüşdüm, rəhbərlik etdiyi "Olaylar" İnformasiya Agentliyinin xəbərlərindən istifadə etmək istədiyimi və kömək etməyini istədim. Həmən razılıq verdi, əməkdaşlarına da tapşırdı ki, digər məsələlərdə də kömək etsinlər. Təmənnasız. Onun xeyirxahlığını unutmadım. Əməkdqaşlığımız bu gün də davam edir və mən Müstəqil.Az xəbər portalının yaradıcısı və baş redaktoru olaraq gərəkən zamanlarda artıq dostum olan Yunus bəylə məsləhətləşmələr edir, onun təcrübəsinə və diqqətinə güvənirəm.

Yunus Oğuzun bir yazıçı kimi nəinki Azərbaycan oxucuları, eləcə də ölkəmizdən coğrafi tərəfdən çox -çox uzaqlarda,mənəvi cəhətdən isə bizə yaxın olan ölkələrdə tanınmasına, oxunmasına, sevilməsinə təsadüf etmişəm və sevinmişəm. Bu, Azərbaycan ədəbiyyatının, Azərbaycan yazıçısının tanınması, oxunması və sevilməsidir.

Onun tarixi mövzuda qələmə aldığı romanların müxtəlif illərdə, müxtəlif saylarda, müxtəlif ölkələrdə dərc olunması da bizlərə, xüsusi olaraq, dost kimi mənə qürur gətirən hadisələr sırasındadır.

Şəxsi keyfiyyətləri ilə də çoxlarna örnək olan dostum Yunus Oğuz ömrünün 65-ci ilinin həndəvərindədir. Bu günlərdə ahıllığın gənclik illərinə qədəm qoyacaq. Lakin onunla söhbət etdikdə, yaradıcılığına, yazdığı tarixi romanlarına, türk törələri ilə bağlı publisist və araşdırma yazılarına nəzər saldıqca, oxuduqca bir daha əmin olursan ki, illər dəyişsə də o həmişə olduğu kimi, yenə də gənclik enerjisi ilə yaşayıb-yaradır, yeni nəsillər tərəfindən də tanınır və sevilir.

Yunus Oğuz illər öncə, elə indinin özündə də ölkənin ictimai və siyasi həyatındqa ön sıralarda olub. Özünün şəxsi xarakterində olduğu kimi siyasi baxışlarında da dəyişməzliyi ilə çoxlarından fərqlənir və nümunə olaraq yaddaşlarda qalır. Ona uğurlar arzulayır, uca Tanrıdan uzun ömür və cansağlığı istəyir, Çox yaşasın, xoş yaşasın, deyirəm.

**Faiq Balabəyli,**
**şair**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.16.**

***Müasir nəsrimizin Yunus Oğuz yolu***



Yunus Oğuzu mənə doğmalaşdıran ən ümdə amillərdən biri müasir və mürəkkəb ədəbi məkanda bizim ruhdaş olmağımız, düşüncədaş olmağımız, sözdaş olmağımız, başlıcası isə vətənpərvər və əbədi tarixdaş olmağımızdır. Bu bağlılığın başında təbii ki, Yunus Oğuzun tarix fəlsəfəsinin türkçülük şüurundan, türk kimliyindən yol alan tarixi reallıqların, yazıçı təxəyyülündən doğan və bu reallıqların içindən boylanan ciddi hadisələrin və olayların, dramatik səhnələrin və baş obrazların kamil bədii təsvirini ustalıqla yarada bilmək bacarığı xüsusi yer tutur.

Bu ədəbi xəzinənin təməl daşlarını Yunus Oğuzun fəlsəfə fakultəsini bitirərək filosof ixtisasına yiyələnməsi, baş redaktor kimi milli mətbuatımızın inkişafındakı müstəsna xidmətləri, yüzlərlə elmi və publisistik məqalənin müəllifi olması və çoxşaxəli yaradıcılıq fəaliyyəti təşkil edir, eyni zamanda ədibin Böyük türk dünyası naminə göstərdiyi əməli işlər və əldə etdiyi uğurlar da bu xəzinəni bir az da zənginləşdirir.

Bu baxımdan onun Azərbaycan və Özbəkistan arasındakı ədəbi əlaqələrin inkişaf etdirilməsinə, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsinə verdiyi töhfələr təqdirəlayiqdir.

Elmi-tarixi qatlara baş vurmadan və hər dövrün özünəməxsus tarixi proseslərinə dərindən bələd olmadan müasir tarixi əsər yazmaq müşkül məsələ olduğunu dəqiq bilən Yunus Oğuzun tarixin qaranlıq hücrələrini qəlbinin və əqidəsinin işığıyla işiqlandırıb tarixi roman ənənəsinin yeni mərhələsinə qədəm qoymasını çox bəyənirəm. Türkiyə türkcəsinə çevrilib İstanbulda və İngilis dilinə çevrilib Londonda işıq üzü görən "Qızıl kəlmə" mükafatlı "Nadir şah" romanı mənim də ruhumun əsəridir. Üzərində beş ilə yaxın bir zaman sərf etdiyim "Vətən" poemasında mən də Nadir Şah Əfşarı Yunus Oğuz kimi müasir bədii təfəkkürün həqiqət süzgəcindən keçirməyə çalışmışam. Bu süzgəcin təxəyyül mərkəzi tarixi əsər ənənələrinin yeni formada inkişaf istiqamətlərini müəyyən edir ki, əsas istiqamət yönü də Azərbaycan, Azərbaycançılıq və Azərbaycanşünaslıq səmti olur. Bu səmtin elmi-tarixi fəlsəfəsi və ictimai-siyasi mahiyyətli türkçülük və azərbaycançılıq ideyalarının monolit birliyində bərqərar olur.

Yunus Oğuzun "Nadir şah" tarixi romanı ilə yanaşı bir-birindən mükəmməl və müasir bədii təfəkkürün məhsulu olan,- iki cildlik "Əmir Teymur-zirvəyə doğru" və "Əmir Teymur-dünyanın hakimi", "Təhmasib şah", "Atabəy Eldəniz", "Attila", "Ovçu", "Səfəvi Şeyxi", "Şah arvadı və cadugər", "Sultan Alp Arslan" kimi tarixi romanları da nəsr tariximizin yeni və özünə məxsus mərhələsini müəyyənləşdirməyə yönəlib və bu missiyanı uğurla həyata keçirir. Yunus Oğuzun Zəfər savaşımızdan bəhs edən "Cığır" romanı, bir-birindən marağlı və məzmunlı pyesləri və digər əsərləri də müasir nəsr məkanımızın ayrılmaz hissəsi kimi əbədi yaşam dövrünə qədəm basmaqdadır.

Mən qüdrətli qələmdaşıma yeni və bənzərsiz ədəbi uğurlar diləyirəm.

**Ramiz Qusarçaylı,**
**şair-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.12.**

***Sözə Tanrının gözü ilə baxan adam - YUNUS OĞUZ-65***



...Qəribə sakitliyi var. Sükutunun diliylə danışar adamla. Durğu işarələriylə ifadə edər çox vaxt fikrini. Anlayançun gözəl müsahibdi. Əsərlərinin diliylə öz dili eynidi. Ahəng qanunundan kənara çıxmağı sevməz.

Dostlara etibar edər sözünü. Elə Sözüylə də tanıdar içindəki mənini. Tarixinə, kökünə çox bağlıdı. Türkçülüyə xidmət edir. Bütöv Azərbaycançılığı var. Təvazökardı və eyni zamanda diqqət mərkəzində olmağı da sevir. Laqeydliyə qarşıdı. Daim axtarışdadı və hər gün özünə hesabat verməyə alışıb. Sözünün arxasında durandı və dünyaya işıq tərəfdən baxır. Elə qələmi də. İmzası oxuculara yaxşı tanışdı. Yunus Oğuzdan danışıram. Oxucunu tarixiylə, kököylə üz-üzə qoyan, öz cığırından çıxmayan, sözünün çəkisini bilən nasir Yunus Oğuzdan. Yazdıqlarında ədalətə və həqiqətə sığınan yazıçı Sözə Tanrının gözüylə baxanlardandı. Axı böyük Sözə bəşəri sevgisi var. Tarixi bədiiləşdirmək, eyni zamanda yalansız, boyasız təqdim etmək elə də asan deyil. Bu da böyük cəsarət tələb edir. Zənnimcə Yunus Oğuz bunun öhdəsindən peşəkarcasına gəlir. Bu baxımdan yazıçının bütün əsərləri geniş oxucu kütləsinin rəğbətini qazanıb.

"Əmir Teymur","Uçurum", "Nadir şah", "Cığır " və başqa romanlar yazıçı təxəyyülünün məhsulu olsa da tarixi faktlara köklənib. Yunus Oğuzun ədəbiyyatda öz dəst-xətti var və hadisələrə yanaşma tərzi tamam fərqlidi. Yazıçı təkrarı sevmir və daim axtarışdadı. Tarixə istinadən yazılan yazılar elə də asan ərsəyə gəlmir. Hamısı uzun axtarışların və zəhmətin bəhrəsidi. Bu yaxınlarda onun "Türk etnonimi və törələri " adlı əsərini ( Əsər Olaylar.az saytında yayımlanıb, hazırda çap ərəfəsindədir-red) oxudum və yazıçının yazı manerasına heyran qaldım. Mən bu əsəri türk etnologiyası tarixində ən qiymətli tapıntı kimi dəyərləndirirəm. Türk etnonimi, törələr, qanunlar, ilk ailə anlayışı, ibtidai cəmiyyət, olum, ölüm, ruh, ibtidai inanclar, "Bozqurd "fəlsəfəsi, Oğuz türklərinin yaşam tərzi və başqa bu kimi dəyərli tarixi faktlarla zəngin olan bu əsər soy-kökümüz haqqında oxucuya yeni məlumat verir.

Eyni zamanda yazıçı orta əsr qadınının cəmiyyətdə öz yeri olduğunu və hadisələrdən kənarda qalmadığını vurğulayır. Quba xanı Fətəli xanın həyat yoldaşı Tutibikə xatunun simasında qadınların cəmiyyətdə tutduğu mövqedən, onların mübarizəsindən söz açır. İsbat edir ki, türk qadını kölə yox, cəmiyyətin aparıcı qüvvələrindən biri olub.

Yazıçı qədim türk dövlətlərinin yaranması, coğrafiyası, inkişafı, mübarizəsi haqqında da geniş məlumat verir.

Türk inanclarına görə Tanrı təkdi. Türk törəsinə görə hər kəsin cəmiyyət içində öz yeri və mövqeyi var. Türk ideologiyasına görə ailə ocaqdı. Xaqan başda olmaqla hər kəs törələrə uyğun hərəkət etməlidi. Qanunlardan kənara çıxmaq olmaz. Türk qanunlarında düzlük, ədalət, insanlıq hər şeydən öncə gəlir. Yazıçı bu əsərdə çox nüanslara toxunub.

Müəllif mənbələrə əsaslanaraq həqiqətən ortalığa çox gərəkli və qiymətli əsər qoyub. Bu yazıçının zəngin tarixi biliyə malik olmasından xəbər verir.

Əminəm ki, bu əsər də yazıçının başqa əsərləri kimi geniş oxucu kütləsi qazanacaq və seviləcək.

Yunus Oğuz həm də "Olaylar" qəzetinin təsisçisidir, eyni zamanda gözəl publisistdir. Ara-sıra şeirlər də yazır. Amma qələmi nəsrdə daha mükəmməldir. Bu da mənim fikrimdir.

Qarşıdan Yunus bəyin doğum günü gəlir. Bu ərəfədə onu yubiley yaşı münasibətilə qəlbən təbrik edir və yaradıcılıq uğurları arzulayırıq.

**Təranə Dəmir,**
**şair-publisist**

**Olaylar.- 2025.- 18-24 iyul (№24).- S.16.**